AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 İYUN 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 130 (6163) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç,

Dövlət bayramınız - Rusiya Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Dost Rusiya bu gün dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iqtisadiyyatın davamlı inkişafı və modernləşdirilməsi, xalqın rifahının yüksəldilməsi məsələlərini uğurla həll edir. Rusiya beynəlxalq arenada fəal rol oynayır.

Ölkələrimizin ən geniş spektrli məsələlər üzrə səmərəli əməkdaşlığını və sıx qarşılıqlı fəaliyyətini əyani şəkildə əks etdirən Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin yüksək səviyyəsi xüsusi məmnunluq doğurur.

Əminəm ki, bizim birgə səylərimiz bundan sonra da ənənəvi sıx dostluq və mehriban qonşuluq telləri ilə bağlı olan xalqlarımızın və ölkələrimizin mənafeyi naminə Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə yönələcək.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı və uğurlar, bütün rusiyalılara isə sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV.**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı, 8 iyun 2018-ci il.**

## Filippin Respublikasının Prezidenti Zati-aliləri cənab Rodriqo Roa Duterteyə

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Filippin arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə və dost Filippin xalqına ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 iyun 2018-ci il.**

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqı öz təbiətindən gələn dərin insanpərvərlik və xoşməramlılıq duyğusu ilə uzun əsrlərdən bəri bütün digər xalqların dini-mənəvi dəyərlərinə daim ehtiramla yanaşmışdır. Ölkədə müxtəlif mədəniyyətlərə, dinlərə və dini cərəyanlara mənsub insanların heç bir maneəyə rast gəlmədən qarşılıqlı anlaşma şəraitində azad yaşamaları, eləcə də azsaylı xalqların öz etnik-mədəni dəyərlərini qorumaları və cəmiyyət həyatının istənilən sahəsində fəal iştirak etməli üçün həmişə geniş imkanlar yaradılmışdır. Tolerantlıq səviyyəsinin və multikultural nailiyyətlərinin göstəricisi olub gələcək inkişafı üçün də zəmin təşkil edən hazırkı milli-mədəni rəngarənglıyi Azərbaycanın ümumbəşəri dəyərlər xəzinəsinə misilsiz töhfələrindəndir.

Müstəqil Azərbaycan Respublikasının məhz xalqın həmin zəngin tarixi təcrübəsinə istinadən uğurla gerçəkləşdirdiyi dövlət-din münasibətləri konsepsiyasının doğruluğu və həyatiliyinin nəticəsidir ki, ölkədəki yüksək tolerantlıq mühiti dini icma və konfessiyaların birgə fəaliyyəti ilə bu gün də lazımınca qorunur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların dəstəklənməsi və fəaliyyətlərinin ahəngdarlığının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250,0 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100,0 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100,0 (yüz) min manat və Azərbaycan Respublikasında Alban-Udi Xristian dini icmasına 100,0 (yüz) min manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib








**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri Zakir Həsənov dövlətimizin başçısına raport verdi.

Bildirildi ki, hərbi hissənin inşasına 2017-ci ilin mayında başlanılıb. Ümumi ərazisi 36 hektar olan hərbi hissədə qərargah binası, əsgər yeməkxanası və yataqxanası, idman və sıra düzülüş meydançaları, maşınlar üçün qaraj, nəzarət-buraxılış məntəqəsi, nəzarət qüllələri quraşdırılıb.

Hərbi hissənin qərargah binası müasir səviyyədə inşa olunub. Binada hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb. Bu cür müasir qərargah binalarının yaradılması hərbi potensialın artırılması, əsgər və zabitlərin xidmət şəraitlərinin yüksək səviyyədə təmin edilməsi istiqamətində dövlətimizin atdığı mühüm addımların ardıcıl olduğunun bir daha göstərir.

**(davamı 3-cü səhifədə)**

## Y.S.Abramovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Yevda Sasunoviç Abramov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

## A.Ə.Məmmədovun Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Arif Əhməd oğlu Məmmədov Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru təyin edilsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

## Q.Q.Qurbanovun Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qüdrət Qəmbər oğlu Qurbanov Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru təyin edilsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Fövqəladə halların nəticələrinin aradan qaldırılması istiqamətində peşəkar milli kadrların hazırlanması işində fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Akademiyasının aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Hətəmov Əhməd Süleyman oğlu
Kazımov Kazım Tahir oğlu

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Dadaşov İlqar Firdovsi oğlu - polkovnik
Həsənov Hüseynqulu Həsənbala oğlu - polkovnik
Mahmudov Elçin Musa oğlu - polkovnik
Qarayev Malik Fikrət oğlu - polkovnik.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

# Prezident İlham Əliyev Bolqarıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Bolqarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankovun etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Nikolay Yankov fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Nikolay Yankov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.





Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirərək, yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğuladı, Bolqarıstan Prezidenti və Baş nazirlərinin Bakıya, özünün Bolqarıstana səfərlərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev Nikolay Yankovun səfirlik fəaliyyətinin əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Nikolay Yankov Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını Prezident İlham Əliyevə çatdırdı və dövlətimizin başçısını yenidən prezident seçilməsi, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar təbrik etdi. Səfir ölkələrimizin rəhbərliyi arasında dostluq əlaqələrinin mövcud olduğunu bildirərək, bunun ikitərəfli münasibətlərin inkişafında rolunu xüsusi qeyd etdi.

"Cənub Qaz Dəhlizi" layihəsinə toxunan Nikolay Yankov bu layihənin icrasının Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, Bolqarıstanın qaz təchizatının şaxələndirilməsi baxımından böyük önəm daşıdığını vurğulayaq, ölkəsinin gələcəkdə bu layihədə tranzit rolu oynaya biləcəyini dedi. O, Bolqarıstanın bu mühüm layihənin reallaşmasına siyasi sadiqliyini bir daha ifadə etdi.

Prezident İlham Əliyev bu yaxınlarda Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışının önəmini qeyd edərək, yaxın günlərdə TANAP-ın da işə salınacağını vurğuladı, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı Bolqarıstanın bu layihənin mühüm tərkib hissəsi olduğunu və gələcəkdə digər ölkələrə Azərbaycan qazının çatdırılması üçün tranzit rolu oynaya biləcəyini dedi.

Prezident İlham Əliyev Bolqarıstan Prezidenti Rumen Radevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstan Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyat, turizm, investisiya qoyuluşu, kənd təsərrüfatı sahələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Perunun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mariya Milaqros Kastanyon Seoanenin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Mariya Milaqros Kastanyon Seoane fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mariya Milaqros Kastanyon Seoane etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.





Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Mariya Milaqros Kastanyon Seoane Peru Respublikasının Prezidenti Martin Viskarranın salamlarını dövlətimizin başçısına çatdırdı. O, səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Mariya Milaqros Kastanyon Seoane Azərbaycan ilə Peru arasında mümkün əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyini qeyd edərək, bu baxımdan kənd təsərrüfatı sahəsində yaxşı potensialın olduğunu dedi.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi üçün istiqamətlərin müəyyən edilməsinin zəruri olduğunu vurğulayaraq, bir neçə sahədə, o cümlədən kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsinin mümkünlüyünü bildirdi, bu sahənin Azərbaycanın inkişafında prioritet sahələrdən biri olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Peru Respublikasının Prezidenti Martin Viskarranın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Peru Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Rusiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovun etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Mixail Boçarnikov fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mixail Boçarnikov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, hərbi-texniki, humanitar və bütün digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında mövcud olan bu münasibətləri strateji tərəfdaşlıq əlaqələri kimi dəyərləndirdiyini vurğuladı. Münasibətlərimizin zəngin tarixə malik olduğunu deyən Prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə də uğurla və dinamik şəkildə inkişaf edəcəyinə əminliyini bildirdi.



Səfir Mixail Boçarnikov Rusiya Prezidenti Vladimir Putinin ona səfirlik fəaliyyəti dövründə Azərbaycan ilə əlaqələri daha da möhkəmləndirmək istiqamətində səylər göstərmək barədə tapşırıqlar verdiyini bildirdi. O qeyd etdi ki, Rusiya-Azərbaycan ikitərəfli münasibətləri bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərinin Rusiyada maraqla izlənildiyini deyən Mixail Boçarnikov Bakıda olduğu bir neçə gün ərzində paytaxtda aparılan abadlıq işlərinin onda dərin təəssürat yaratdığını vurğuladı.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir (stasionar, modul və mobil tipli) kəsim məntəqələrinin təşkil olunması, qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması, istehlakçıların hüquqlarının müdafiəsi, qida təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi:

*1.1.* yerli icra hakimiyyəti orqanları ilə birlikdə sahibkarlıq subyektlərini cəlb etməklə baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə uyğun müasir (stasionar, modul və mobil tipli) heyvan kəsimi məntəqələrinin yaradılması (sakinlərin sıxlığı və onlar üçün əlverişli sahələr nəzərə alınmaqla) ilə bağlı tədbirlər görsün;

*1.2.* bu Sərəncamın 1.1-ci bəndinə uyğun olaraq yaradılacaq heyvan kəsimi məntəqələrinin müvafiq laboratoriyalarla təchiz olunmasına dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.3.* Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü və 8-ci maddələrinin tələblərindən irəli gələrək, baytarlıq-sanitariya və sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında satış məqsədləri üçün heyvan kəsimi hallarının qarşısının alınması istiqamətində tədbirlər görsün;

*1.4.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları müvafiq olaraq bu Sərəncamın 1.1-ci və 1.3-cü bəndlərində nəzərdə tutulmuş işlərin icrası ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə zəruri köməkliyin göstərilməsini təmin etsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib





(əvvəli 1-ci səhifədə səhifədə)

Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasında yaradılan şəraitlə də tanış oldu.

Yataqxana binasında əsgərlərin qalması və istirahəti üçün hərtərəfli şərait var. Burada məişət və əşya otaqları, dəftərxana və digər zəruri otaqlar yaradılıb. Yataqxanadakı ideoloji otaqda hərbi qulluqçular Azərbaycanın hərb tarixinin şanlı səhifələri barədə məlumat alacaqlar.

Hərbi hissədə əsgər və zabitlərin idmanla məşğul olmaları üçün də yaxşı şərait var. Burada quraşdırılan idman meydançasında hərbi qulluqçular mini-futbol, basketbol və voleybolla məşğul ola biləcəklər.

Hərbi hissənin əsgər yeməkxanası da müasir səviyyədədir. Təmiz və işıqlı yeməkxana binasında hərbi qulluqçulara bol enerjili, ekoloji təmiz və rasiona uyğun yeməklər verilir. Bütün bunlar bir daha göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində mühüm işlər görülür, hərbi qulluqçuların xidməti, yaşayış və istirahət şəraitlərini yüksək səviyyəyə çatdırmaq məqsədilə konkret addımlar atılır.

Hərbi hissənin raketlərin yoxlanılması anqarında zəruri avadanlıq quraşdırılıb. Burada raketlər təmir ediləcək və yoxlanılacaq. Burada, həmçinin raket meydançası da yaradılıb. Bu hərbi hissədə belə müasir infrastrukturun yaradılması onun strateji əhəmiyyətini daha da artırır.











Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev raketlərin saxlanması və döyüş maşınlarına yüklənməsi anqarına da baxdı.

Yeni hərbi hissənin ərazisində iriqabaritli hərbi maşınlar üçün saxlanma anqarı, yanacaqdoldurma məntəqəsi, açıq test meydançası yaradılıb. Ümumilikdə, burada görülən işlər ordu quruculuğu sahəsində son illərdə aparılan məqsədyönlü islahatların tərkib hissəsidir.

Dövlətimizin başçısı döyüş texnikası parkında hərbi texnikaya baxdı.

Ali Baş komandana əməliyyat-taktiki raket kompleksi olan "POLONEZ" barədə məlumat verildi. Onun maksimal atış uzaqlığı 300 kilometrə qədərdir. Raketin çəkisi 780 kiloqram, döyüş başlığı hissəsinin çəkisi 140 kiloqram, zərərvurma radiusu isə 80 metrdir. "POLONEZ"in maksimal uçuş müddəti saniyədə 310 metr, atışa hazırlıq vaxtı 10 dəqiqə, istismar müddəti isə 10 ildir. Bir döyüş maşınında 8 raket olur. Bu kompleks düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunların əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurulması üçündür. Bundan başqa, kompleks vasitəsilə dənizsahili istiqamətlərdə düşmən donanmasının yerləşmə məntəqələri dağıdılır və onun döyüş gəmiləri məhv edilir.

Əməliyyat-taktiki raket kompleksi olan "LORA" da "POLONEZ" kompleksi kimi döyüş zamanı eyni məqsədlər üçün istifadə edilir. Maksimal atış uzaqlığı 300 kilometrdən artıq olan bu kompleksin raketinin çəkisi 1580 kiloqram, döyüş başlığı hissəsinin çəkisi isə 240 kiloqramdır. Raketin zərərvurma radiusu 100 metr təşkil edir. Bir döyüş maşınında 4 raket olur. Onların maksimal uçuş müddəti saniyədə 300 metrdir, atışa hazırlıq vaxtı 13 dəqiqə, istismar müddəti 10 ildir. Həm "POLONEZ", həm də "LORA" kompleksləri GPS və İNS sistemləri ilə idarə olunur.

Bütün bunlar göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son dövrlərdə Ordumuzun müasir silah-sursat, hərbi texnika ilə təminatı məsələsinə xüsusi diqqət və qayğı ilə yanaşılır. Təsadüfi deyil ki, bu gün Ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var. Azərbaycan Ordusunun maddi-texniki bazasının yüksək səviyyədə təminatı üçün müasir silah-sursat, hərbi texnika xaricdən alınır. Bununla yanaşı, Ali Baş Komandanın diqqət və qayğısı sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi də Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır.

**AZƏRTAC**

## "Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 12, maddə 1134; 2012, N 2, maddə 117; 2014, N 2, maddə 112; N 6, maddə 644, N 9, maddə 1027; 2016, N 8, maddə 1384, N 9, maddə 1518; 2017, N 8, maddə 1521) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri.".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Çin Xalq Respublikası tərəfinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

## "Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1179 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1179 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 12, maddə 2097) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədən "və publik hüquqi şəxsin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan səlahiyyətlərini həyata keçirsin" sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Milli Turizm Təbliğat Bürosu" publik hüquqi şəxsin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan səlahiyyətlərini həyata keçirsin.";

1.3. 5.4-cü bənddə "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə və "hissəsinə əsasən yaradılacaq" sözləri "hissəsində nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci il.**

# Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası gəlirlər 16 516 684,0 min manat, xərclər 17 594 478,0 min manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin gəlirlər və xərclər üzrə göstəriciləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| **1.** | **Gəlirlər** | **16 516 683 994** |
| 1.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 040 281 959 |
| 1.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 285 840 630 |
| 1.3. | Hüquqi şəxslərin torpaq vergisi | 50 368 185 |
| 1.4. | Hüquqi şəxslərin əmlak vergisi | 178 563 943 |
| 1.5. | Əlavə dəyər vergisi | 3 668 602 639 |
| 1.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 1 773 189 569 |
| 1.6. | Sadələşdirilmiş vergi | 371 409 884 |
| 1.7. | Aksizlər | 612 620 309 |
| 1.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 93 926 041 |
| 1.8. | Yol vergisi | 134 345 674 |
| 1.8.1. | xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 34 792 067 |
| 1.9. | Mədən vergisi | 111 090 700 |
| 1.10. | Gömrük rüsumları | 706 871 691 |
| 1.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 189 023 895 |
| 1.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 71 043 023 |
| 1.12.1. | "Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondu"na daxilolmalar (Serbiya Respublikasına verilmiş kredit üzrə) | 68 906 133 |
| 1.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 2 551 000 |
| 1.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfert) | 6 100 000 000 |
| 1.15. | Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalar | 8 706 383 |
| 1.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 5 306 617 |
| 1.17. | Aksiz markalarının satışından daxilolmalar | 4 443 389 |
| 1.18. | Dövlət rüsumu | 107 672 227 |
| 1.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 358 263 966 |
| 1.20. | Vergi qanunvericiliyinin pozulması ilə bağlı tətbiq edilən cərimə və sanksiyalardan daxilolmalar | 115 568 452 |
| 1.21. | Sair daxilolmalar | 144 109 428 |
| 1.21.1. | "Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondu"na daxilolmalar (təkrar borc sazişləri, yerləşdirilmiş vəsaitə hesablanmış faiz, dövlət zəmanətinin verilməsi) | 7 839 791 |
| 1.22. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mənfəətindən ayırmalar | 250 000 000 |
| **2.** | **Xərclər** | **17 594 477 984** |
| 2.1. | Ümumi dövlət xidmətləri | 2 679 396 316 |
| 2.1.1. | qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri | 552 220 504 |
| 2.1.2. | beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri | 207 333 026 |
| 2.1.3. | elm xərcləri | 109 819 238 |
| 2.1.4. | başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri | 12 322 290 |
| 2.1.5. | dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər | 1 513 614 724 |
| 2.1.6. | yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya | 5 186 534 |
| 2.1.7. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 278 900 000 |
| 2.2. | Müdafiə | 2 621 265 051 |
| 2.2.1. | müdafiə qüvvələri | 1 250 825 782 |
| 2.2.2. | milli təhlükəsizlik | 110 640 551 |
| 2.2.3. | müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 2 471 366 |
| 2.2.4. | digər kateqoriyalara aid edilməyən xərclər | 1 257 327 352 |
| 2.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 1 177 568 816 |
| 2.3.1. | məhkəmə hakimiyyəti | 49 054 257 |
| 2.3.2. | hüquq-mühafizə | 910 046 542 |
| 2.3.3. | prokurorluq | 57 833 467 |
| 2.3.4. | digər kateqoriyalara aid edilməyən xidmətlər | 160 634 550 |
| 2.4. | Təhsil | 1 742 690 388 |
| 2.4.1. | məktəbəqədər təhsil | 152 968 947 |
| 2.4.2. | ümumi təhsil | 953 756 956 |
| 2.4.3. | ilk peşə-ixtisas təhsili | 26 324 423 |
| 2.4.4. | orta ixtisas təhsili | 36 444 803 |
| 2.4.5. | ali təhsil | 188 071 043 |
| 2.4.6. | əlavə təhsil | 3 558 371 |
| 2.4.7. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 381 565 845 |
| 2.5. | Səhiyyə | 704 726 614 |
| 2.5.1. | poliklinikalar və ambulatoriyalar | 105 595 938 |
| 2.5.2. | xəstəxanalar | 320 969 301 |
| 2.5.3. | səhiyyə sahəsində digər xidmətlər | 6 308 421 |
| 2.5.4. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 4 312 727 |
| 2.5.5. | səhiyyə sahəsinə aid edilən digər xidmətlər | 267 540 227 |
| 2.6. | Sosial müdafiə və sosial təminat | 2 350 165 191 |
| 2.6.1. | sosial müdafiə xərcləri | 2 067 761 513 |
| 2.6.2. | sosial təminat xərcləri | 282 387 831 |
| 2.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 15 847 |
| 2.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 253 301 348 |
| 2.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 118 590 391 |
| 2.7.2. | radio, televiziya və nəşriyyat | 56 877 016 |
| 2.7.3. | bədən tərbiyəsi, gənclər siyasəti və turizm | 38 468 026 |
| 2.7.4. | digər kateqoriyalara aid edilməyən fəaliyyət | 39 365 915 |
| 2.8. | Mənzil və kommunal təsərrüfatı | 300 199 218 |
| 2.8.1. | mənzil təsərrüfatı | 31 438 754 |
| 2.8.2. | kommunal təsərrüfatı | 259 265 647 |
| 2.8.3. | su təsərrüfatı | 8 961 000 |
| 2.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 533 817 |
| 2.9. | Yanacaq və enerji | 3 514 998 |
| 2.9.1. | enerji kompleksi | 2 499 998 |
| 2.9.2. | yanacaq və enerji kompleksi sahəsi üzrə təcrübə və tətbiqi tədqiqatlar | 1 015 000 |
| 2.10. | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 506 180 967 |
| 2.10.1. | kənd təsərrüfatı | 469 844 970 |
| 2.10.2. | meşə təsərrüfatı | 11 970 884 |
| 2.10.3. | balıqçılıq və ovçuluq | 2 747 355 |
| 2.10.4. | ətraf mühitin mühafizəsi | 14 624 378 |
| 2.10.5. | hidrometeorologiya tədbirləri | 6 993 380 |
| 2.11. | Sənaye, tikinti və faydalı qazıntılar | 2 707 364 428 |
| 2.11.1. | tikinti | 2 690 514 668 |
| 2.11.1.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 689 301 330 |
| 2.11.2. | faydalı qazıntılar | 12 349 760 |
| 2.11.3. | geodeziya və xəritəçəkmə | 4 500 000 |
| 2.12. | Nəqliyyat və rabitə | 101 473 406 |
| 2.12.1. | nəqliyyat | 100 190 406 |
| 2.12.2. | rabitə | 1 283 000 |
| 2.13. | İqtisadi fəaliyyət | 775 524 821 |
| 2.13.1. | iqtisadi və kommersiya fəaliyyəti | 178 246 208 |
| 2.13.1.1. | sahibkarlığa dəstək | 28 246 208 |
| 2.13.1.2. | Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri | 150 000 000 |
| 2.13.2. | iqtisadi fəaliyyətin digər sahələri | 595 939 203 |
| 2.13.3 | iqtisadi fəaliyyət sahələri üzrə təcrübə və tətbiqi tədqiqatlar | 1 339 410 |
| 2.14. | Əsas bölmələrə aid edilməyən xidmətlər | 1 614 638 243 |
| 2.14.1. | məqsədli büdcə fondları | 297 000 000 |
| 2.14.1.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 297 000 000 |
| 2.14.2. | ehtiyat fondları | 396 209 542 |
| 2.14.2.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 197 500 232 |
| 2.14.2.2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 198 709 310 |
| 2.14.3. | əsas bölmələrə aid edilməyən sair xərclər | 921 428 701 |
| 2.14.3.1. | beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 19 049 914 |
| 2.14.3.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 19 467 845 |
| 2.14.3.3. | digər xidmətlər üzrə xərclər | 882 910 942 |
| 2.15. | 2017-ci ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği | 56 468 179 |
| **3.** | **Büdcə kəsiri** | **1 077 793 990** |
| **4.** | **2018-ci il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabında qalığı** | **1 644 600 000** |

**Maddə 3.** Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 31 may 2018-ci il.**

# "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1152-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsindəki cədvəlin 2-ci hissəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində istifadə olunan vəsaitin inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə icrasının məbləğləri aşağıdakı qaydada təsdiq edilsin:

| | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| **1.1.** | **Ümumi dövlət xidmətləri** | **2 679 396 316** |
| **1.1.1.** | **qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri** | **552 220 504** |
| 1.1.1.1. | Azərbaycan Respublikasının Milli Məclisi | 23 783 015 |
| 1.1.1.2. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 74 743 471 |
| 1.1.1.3. | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 9 577 195 |
| 1.1.1.4. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 678 125 |
| 1.1.1.5. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 3 703 457 |
| 1.1.1.6. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 2 745 420 |
| 1.1.1.7. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti | 6 446 084 |
| 1.1.1.8. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti | 318 653 |
| 1.1.1.9. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 6 108 388 |
| 1.1.1.10. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 12 644 416 |
| 1.1.1.11. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 6 592 441 |
| 1.1.1.12. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti | 1 761 976 |
| 1.1.1.13. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 7 625 228 |
| 1.1.1.14. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti | 413 654 |
| 1.1.1.15. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti | 413 700 |
| 1.1.1.16. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti | 274 095 |
| 1.1.1.17. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti | 255 460 |
| 1.1.1.18. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 15 579 486 |
| 1.1.1.19. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi | 378 681 |
| 1.1.1.20. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi | 2 672 989 |
| 1.1.1.21. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 1 397 725 |
| 1.1.1.22. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti | 533 706 |
| 1.1.1.23. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 4 379 914 |
| 1.1.1.24. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 413 660 |
| 1.1.1.25. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2 617 959 |
| 1.1.1.26. | Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti | 1 389 070 |
| 1.1.1.27. | Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu | 264 966 |
| 1.1.1.28. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 1 781 335 |
| 1.1.1.29. | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 3 582 025 |
| 1.1.1.30. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 7 737 456 |
| 1.1.1.31. | Azərbaycan Respublikasının Vergilər Nazirliyi | 20 501 368 |
| 1.1.1.32. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 285 296 |
| 1.1.1.33. | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 1 338 913 |
| 1.1.1.34. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 2 171 786 |
| 1.1.1.35. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 381 114 |
| 1.1.1.36. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 13 790 970 |
| 1.1.1.37. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi | 7 103 754 |
| 1.1.1.38. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti | 938 360 |
| 1.1.1.39. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti | 620 239 |
| 1.1.1.40. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyi | 541 636 |
| 1.1.1.41. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 2 084 253 |
| 1.1.1.42. | ləğv olunmuş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 1 632 236 |
| 1.1.1.43. | ləğv olunmuş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Metrologiya Xidməti | 567 751 |
| 1.1.1.44. | ləğv olunmuş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akkreditasiya Xidməti | 280 515 |
| 1.1.1.45. | ləğv olunmuş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşma üzrə Dövlət Nəzarəti Xidməti | 1 689 981 |
| 1.1.1.46. | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | 870 087 |
| 1.1.1.47. | ləğv olunmuş Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi | 584 284 |
| 1.1.1.48. | ləğv olunmuş Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası | 2 321 208 |
| 1.1.1.49. | ləğv olunmuş Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası | 849 712 |
| 1.1.1.50. | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 495 569 |
| 1.1.1.51. | Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti | 2 599 667 |
| 1.1.1.52. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 20 016 626 |
| 1.1.1.53. | ləğv olunmuş Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi | 1 048 361 |
| 1.1.1.54. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi | 411 940 |
| 1.1.1.55. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi | 409 473 |
| 1.1.1.56. | ləğv olunmuş Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi | 1 526 033 |
| 1.1.1.57. | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 978 757 |
| 1.1.1.58. | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi | 546 643 |
| 1.1.1.59. | Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 298 680 |
| 1.1.1.60. | Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının Katibliyi | 77 434 |
| 1.1.1.61. | Tarif (qiymət) Şurasının Katibliyi | 443 721 |
| 1.1.1.62. | Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu | 650 559 |
| 1.1.1.63. | dövlət mükafatlarının və təltiflərinin maliyyə təminatı | 50 000 |
| 1.1.1.64. | Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 89 292 |
| 1.1.1.65. | Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 86 613 |
| 1.1.1.66. | şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 84 407 455 |
| 1.1.1.67. | Azərbaycan Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 8 688 108 |
| 1.1.1.67.1. | Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) | 1 841 674 |
| 1.1.1.67.2. | Azərbaycan Respublikasının Hesablama Palatası | 3 359 314 |
| 1.1.1.67.3. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 2 130 868 |
| 1.1.1.67.4. | Məhkəmə-Hüquq Şurası | 556 259 |
| 1.1.1.67.5. | Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası | 799 993 |
| 1.1.1.68. | qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilatı strukturunun təkmilləşdirilməsi | 4 497 717 |
| 1.1.1.69. | qanunvericilik və icra hakimiyyəti orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 519 175 |
| 1.1.1.70. | qanunvericilik və icra hakimiyyəti orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 154 894 926 |
| 1.1.1.71. | ləğv olunmuş Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi | 1 116 542 |
| **1.1.2.** | **beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri** | **207 333 026** |
| 1.1.2.1. | beynəlxalq maliyyə-kredit və ictimai-siyasi təşkilatlara üzvlük haqqı | 47 961 823 |
| 1.1.2.2. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları | 100 044 966 |
| 1.1.2.3. | xarici dövlətlərə verilən kreditlər | 43 082 449 |
| 1.1.2.4. | beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 15 139 950 |
| 1.1.2.5. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələri) | 1 103 838 |
| **1.1.3.** | **elm xərcləri** | **109 819 238** |
| 1.1.3.1. | Azərbaycan Milli Elmlər Akademiyası və onun tabeliyində olan müəssisələrin saxlanılması | 76 488 343 |
| 1.1.3.2. | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 464 991 |
| 1.1.3.3. | "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi | 1 737 897 |
| 1.1.3.4. | Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi | 1 951 155 |
| 1.1.3.5. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 3 561 372 |
| 1.1.3.6. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 437 321 |
| 1.1.3.7. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 632 741 |
| 1.1.3.8. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 777 844 |
| 1.1.3.9. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 11 265 785 |
| 1.1.3.10. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 418 186 |
| 1.1.3.11. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 4 141 655 |
| 1.1.3.12. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 170 000 |
| 1.1.3.13. | ləğv olunmuş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 431 302 |
| 1.1.3.14. | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 4 393 821 |
| 1.1.3.15. | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu | 752 528 |
| 1.1.3.16. | elm sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | - |
| 1.1.3.17. | elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | - |
| 1.1.3.18. | elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 2 194 297 |
| **1.1.4.** | **başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri** | **12 322 290** |
| 1.1.4.1. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 1 036 460 |
| 1.1.4.2. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 11 285 830 |
| 1.1.4.2.1. | seçici siyahılarının dəqiqləşdirilməsi | 4 064 784 |
| 1.1.4.2.2. | dairə seçki komissiyalarının saxlanılması | 7 221 046 |
| **1.1.5.** | **Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər)** | **1 513 614 724** |
| **1.1.6.** | **yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya** | **5 186 534** |
| **1.1.7.** | **Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya** | **278 900 000** |
| **1.2.** | **Müdafiə** | **2 621 265 051** |
| **1.2.1.** | **müdafiə qüvvələri** | **1 250 825 782** |
| 1.2.1.1. | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi | 1 089 381 308 |
| 1.2.1.2. | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti | 138 652 224 |
| 1.2.1.3. | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 19 481 782 |
| 1.2.1.4. | müdafiə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 3 310 468 |
| **1.2.2.** | **milli təhlükəsizlik** | **110 640 551** |
| 1.2.2.1. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti | 93 176 872 |
| 1.2.2.2. | Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti | 17 463 679 |
| **1.2.3.** | **müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar** | **2 471 366** |
| 1.2.3.1. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 2 471 366 |
| **1.2.4.** | **digər kateqoriyalara aid edilməyən xərclər** | **1 257 327 352** |
| 1.2.4.1. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 2 893 231 |
| 1.2.4.2. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 1 254 434 121 |
| **1.3.** | **Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq** | **1 177 568 816** |
| **1.3.1.** | **məhkəmə hakimiyyəti** | **49 054 257** |
| 1.3.1.1. | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi | 3 958 856 |
| 1.3.1.2. | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 6 963 988 |
| 1.3.1.3. | Bakı Apellyasiya Məhkəməsi | 4 517 771 |
| 1.3.1.4. | Sumqayıt Apellyasiya Məhkəməsi | 1 769 157 |
| 1.3.1.5. | Gəncə Apellyasiya Məhkəməsi | 1 303 467 |
| 1.3.1.6. | Şirvan Apellyasiya Məhkəməsi | 1 288 732 |
| 1.3.1.7. | Şəki Apellyasiya Məhkəməsi | 941 914 |
| 1.3.1.8. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən məhkəmələr) | 27 867 144 |
| 1.3.1.9. | məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 443 228 |
| **1.3.2.** | **hüquq mühafizə** | **910 046 542** |
| 1.3.2.1. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 410 431 403 |
| 1.3.2.2. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsi | 145 147 843 |
| 1.3.2.3. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 23 958 874 |
| 1.3.2.4. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 80 521 066 |

davamı 5-ci səhifədə

## "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*əvvəli 4-cü səhifədə*

| | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| 1.3.2.4.1. | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 53 615 445 |
| 1.3.2.4.2. | Penitensiar fəaliyyət | 26 905 621 |
| 1.3.2.5. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 141 077 709 |
| 1.3.2.6. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 16 900 518 |
| 1.3.2.7. | Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti | 82 027 246 |
| 1.3.2.8. | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 9 981 883 |
| 1.3.2.8.1. | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 9 801 883 |
| 1.3.2.8.2. | Miqrasiya fəaliyyəti | 180 000 |
| **1.3.3.** | **Prokurorluq** | **57 833 467** |
| 1.3.3.1. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 48 017 143 |
| 1.3.3.2. | Azərbaycan Respublikasının Hərbi Prokurorluğu | 9 816 324 |
| **1.3.4.** | **digər kateqoriyalara aid edilməyən xidmətlər** | **160 634 550** |
| 1.3.4.1. | ləğv olunmuş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın işçi qrupu | 117 153 |
| 1.3.4.2. | Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupu | 262 080 |
| 1.3.4.3. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | - |
| 1.3.4.4. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 160 255 317 |
| **1.4.** | **Təhsil** | **1 742 690 388** |
| **1.4.1.** | **məktəbəqədər təhsil** | **152 968 947** |
| 1.4.1.1. | yerli icra hakimiyyəti orqanları | 152 704 314 |
| 1.4.1.2. | dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi, dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi, peşə tədris mərkəzlərinin yaradılması və təhsil sahəsində digər tədbirlər | 264 633 |
| **1.4.2.** | **ümumi təhsil** | **953 756 956** |
| 1.4.2.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 935 179 761 |
| 1.4.2.2. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 972 508 |
| 1.4.2.3. | Bakı Dövlət Universiteti | 289 904 |
| 1.4.2.4. | dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi, dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi, peşə tədris mərkəzlərinin yaradılması və təhsil sahəsində digər tədbirlər | 17 314 783 |
| **1.4.3.** | **ilk peşə-ixtisas təhsili** | **26 324 423** |
| 1.4.3.1. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 2 342 424 |
| 1.4.3.2. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 23 330 302 |
| 1.4.3.3. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 651 697 |
| **1.4.4.** | **orta ixtisas təhsili** | **36 444 803** |
| 1.4.4.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 5 552 981 |
| 1.4.4.2. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 2 054 147 |
| 1.4.4.3. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 27 376 119 |
| 1.4.4.4. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 779 061 |
| 1.4.4.5. | dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi, dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi, peşə tədris mərkəzlərinin yaradılması və təhsil sahəsində digər tədbirlər | 682 495 |
| **1.4.5.** | **ali təhsil** | **188 071 043** |
| 1.4.5.1. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 1 971 489 |
| 1.4.5.2. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 1 178 665 |
| 1.4.5.3. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 1 809 089 |
| 1.4.5.4. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 280 089 |
| 1.4.5.5. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 2 094 404 |
| 1.4.5.6. | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 226 121 |
| 1.4.5.7. | "ADA" Universiteti | 17 555 999 |
| 1.4.5.8. | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialı | 11 017 845 |
| 1.4.5.9. | İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı Filialı | 4 005 016 |
| 1.4.5.10. | dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi, dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi, peşə tədris mərkəzlərinin yaradılması və təhsil sahəsində digər tədbirlər | 147 932 326 |
| **1.4.6.** | **əlavə təhsil** | **3 558 371** |
| 1.4.6.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 1 814 414 |
| 1.4.6.2. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 189 444 |
| 1.4.6.3. | Bakı Dövlət Universiteti | 1 162 010 |
| 1.4.6.4. | Azərbaycan Tibb Universiteti | 392 503 |
| **1.4.7.** | **təhsil sahəsində digər müəssisə və tədbirlər** | **381 565 845** |
| 1.4.7.1. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 178 782 028 |
| 1.4.7.2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 10 467 984 |
| 1.4.7.3. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 111 811 |
| 1.4.7.4. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 4 328 563 |
| 1.4.7.5. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 277 826 |
| 1.4.7.6. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 332 540 |
| 1.4.7.7. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 66 766 014 |
| 1.4.7.8. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 277 669 |
| 1.4.7.9. | Azərbaycan Respublikasının Vergilər Nazirliyi | 844 981 |
| 1.4.7.10. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 1 269 961 |
| 1.4.7.11. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti | 104 613 |
| 1.4.7.12. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 267 804 |
| 1.4.7.13. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsi | 3 350 490 |
| 1.4.7.14. | yerli icra hakimiyyəti orqanları | 3 934 728 |
| 1.4.7.15. | dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi, dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi, peşə tədris mərkəzlərinin yaradılması və təhsil sahəsində digər tədbirlər | 94 506 515 |
| 1.4.7.16. | təhsil sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 15 942 318 |
| **1.5.** | **Səhiyyə** | **704 726 614** |
| **1.5.1.** | **poliklinikalar və ambulatoriyalar** | **105 595 938** |
| 1.5.1.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 105 595 938 |
| **1.5.2.** | **xəstəxanalar** | **320 969 301** |
| 1.5.2.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 270 170 463 |
| 1.5.2.2. | Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti | 5 736 689 |
| 1.5.2.3. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 853 414 |
| 1.5.2.4. | Azərbaycan Tibb Universiteti | 709 737 |
| 1.5.2.5. | Azərbaycan Respublikasının Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 4 315 370 |
| 1.5.2.6. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkoloji Mərkəzi | 39 183 628 |
| **1.5.3.** | **səhiyyə sahəsində digər xidmətlər** | **6 308 421** |
| 1.5.3.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 1 905 167 |
| 1.5.3.2. | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin səhiyyə müəssisələri | 2 915 065 |
| 1.5.3.3. | səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 1 488 189 |
| **1.5.4.** | **səhiyyə sahəsində tətbiqi tədqiqatlar** | **4 312 727** |
| 1.5.4.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 3 164 606 |
| 1.5.4.2. | Azərbaycan Respublikasının Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 525 421 |
| 1.5.4.3. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkoloji Mərkəzi | 622 700 |
| **1.5.5.** | **səhiyyə sahəsinə aid edilən digər xidmətlər** | **267 540 227** |
| 1.5.5.1. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 204 432 947 |
| 1.5.5.2. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 11 292 087 |
| 1.5.5.3. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 2 519 761 |
| 1.5.5.4. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 924 103 |
| 1.5.5.5. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 7 813 609 |
| 1.5.5.6. | Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti | 11 540 888 |
| 1.5.5.7. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsi | 2 514 380 |
| 1.5.5.8. | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 21 396 697 |
| 1.5.5.9. | səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 200 000 |
| 1.5.5.10. | səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 4 905 755 |
| **1.6.** | **Sosial müdafiə və sosial təminat** | **2 350 165 191** |
| **1.6.1.** | **sosial müdafiə xərcləri** | **2 067 761 513** |
| 1.6.1.1. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 592 945 842 |
| 1.6.1.2. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 194 141 458 |
| 1.6.1.3. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 674 213 |
| 1.6.1.4. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna ayırmalar (transfert) | 1 279 000 000 |
| 1.6.1.5. | sosial müdafiə, pensiya və digər sosial təminat xərcləri | - |
| **1.6.2.** | **sosial təminat xərcləri** | **282 387 831** |
| 1.6.2.1. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 14 930 259 |
| 1.6.2.2. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti | 1 627 972 |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| 1.6.2.3. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti | 14 601 628 |
| 1.6.2.4. | Azərbaycan Respublikasının keçmiş prezidentinin və onun ailə üzvlərinin təminatı | 304 527 |
| 1.6.2.5. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (Paralimpiya Oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) | 500 000 |
| 1.6.2.6. | Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (2016-cı il ərzində təbii qazın daxili bazarda maya dəyərindən aşağı qiymətə satılması nəticəsində yaranmış zərərin örtülməsi məqsədi ilə verilən subsidiya) | 250 000 000 |
| 1.6.2.7. | sosial müdafiə, pensiya və digər sosial təminat xərcləri | 423 445 |
| **1.6.3.** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar** | **15 847** |
| 1.6.3.1. | sosial təminat sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 15 847 |
| **1.7.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət** | **253 301 348** |
| **1.7.1.** | **mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **118 590 391** |
| 1.7.1.1. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 100 892 529 |
| 1.7.1.2. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 315 903 |
| 1.7.1.3. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 455 145 |
| 1.7.1.4. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 657 263 |
| 1.7.1.5. | ləğv olunmuş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 408 063 |
| 1.7.1.6. | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 5 003 453 |
| 1.7.1.7. | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi | 361 650 |
| 1.7.1.8. | "Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 2 000 000 |
| 1.7.1.9. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 773 570 |
| 1.7.1.10. | ləğv olunmuş Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası | 5 067 914 |
| 1.7.1.11. | Beynəlxalq Muğam Mərkəzi | 966 360 |
| 1.7.1.12. | yerli icra hakimiyyəti orqanları | - |
| 1.7.1.13. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 828 292 |
| 1.7.1.14. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 860 249 |
| **1.7.2.** | **radio, televiziya və nəşriyyat** | **56 877 016** |
| 1.7.2.1. | Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) | 7 660 122 |
| 1.7.2.2. | "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 31 662 322 |
| 1.7.2.3. | Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə verilən maliyyə yardımı | 11 528 918 |
| 1.7.2.4. | Azərbaycan Nəşriyyatı (dövlət sifarişlərinin yerinə yetirilməsi) | 1 300 000 |
| 1.7.2.5. | Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu | 3 998 987 |
| 1.7.2.6. | "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinə verilən subsidiya | 521 613 |
| 1.7.2.7. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 182 836 |
| 1.7.2.8. | radio və televiziya redaksiyalarının saxlanılması | 22 218 |
| **1.7.3.** | **bədən tərbiyəsi, gənclər siyasəti və turizm** | **38 468 026** |
| 1.7.3.1. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 4 345 899 |
| 1.7.3.2. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 33 833 552 |
| 1.7.3.2.1. | bədən tərbiyəsi və idmanın təşkili | 22 344 068 |
| 1.7.3.2.2. | gənclər siyasəti | 11 489 484 |
| 1.7.3.3. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 288 575 |
| **1.7.4.** | **digər kateqoriyalara aid edilməyən fəaliyyət** | **39 365 915** |
| 1.7.4.1. | Heydər Əliyev Mərkəzi | 8 005 627 |
| 1.7.4.2. | ləğv olunmuş Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi | 219 628 |
| 1.7.4.3. | Azərbaycanda Atatürk Mərkəzi | 302 489 |
| 1.7.4.4. | ləğv olunmuş Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi | 1 690 055 |
| 1.7.4.5. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 976 143 |
| 1.7.4.6. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 1 468 183 |
| 1.7.4.7. | Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 193 478 |
| 1.7.4.8. | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 5 001 976 |
| 1.7.4.9. | Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu | 993 108 |
| 1.7.4.10. | dövlət büdcəsindən verilən maliyyə yardımları | 6 261 920 |
| 1.7.4.10.1. | qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 3 130 310 |
| 1.7.4.10.2. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (dini mərkəzlərə (idarələrə) verilən maliyyə yardımı) | 979 649 |
| 1.7.4.10.3. | siyasi partiyalara verilən maliyyə yardımı | 2 151 961 |
| 1.7.4.11. | yerli icra hakimiyyəti orqanları | 342 330 |
| 1.7.4.12. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | - |
| 1.7.4.13. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 10 286 465 |
| 1.7.4.14. | mədəniyyət, incəsənət informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 3 624 513 |
| **1.8.** | **Mənzil və kommunal təsərrüfatı** | **300 199 218** |
| **1.8.1.** | **mənzil təsərrüfatı** | **31 438 754** |
| 1.8.1.1. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (məcburi köçkünlər üçün salınmış qəsəbələrdə dövlət mənzil fondunun istismarı və saxlanılması) | 600 000 |
| 1.8.1.2. | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 392 654 |
| 1.8.1.3. | şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 30 446 100 |
| **1.8.2.** | **kommunal təsərrüfatı** | **259 265 647** |
| 1.8.2.1. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (məcburi köçkünlər üçün salınmış qəsəbələrdə abadlıq, yaşıllaşdırma işlərinin görülməsi və digər kommunal tədbirlər) | 3 465 851 |
| 1.8.2.2. | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2 706 505 |
| 1.8.2.3. | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi | 11 699 997 |
| 1.8.2.4. | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 53 376 106 |
| 1.8.2.5. | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 18 895 851 |
| 1.8.2.6. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (mənzil və kommunal təsərrüfatı sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması) | 2 000 000 |
| 1.8.2.7. | şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 167 121 337 |
| **1.8.3.** | **su təsərrüfatı** | **8 961 000** |
| 1.8.3.1. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 1 561 000 |
| 1.8.3.2. | "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya | 7 400 000 |
| **1.8.4.** | **mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər** | **533 817** |
| 1.8.4.1. | şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 533 817 |
| **1.9.** | **Yanacaq və enerji** | **3 514 998** |
| **1.9.1.** | **enerji kompleksi** | **2 499 998** |
| 1.9.1.1. | Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 2 499 998 |
| **1.9.2.** | **yanacaq və enerji kompleksi sahəsi üzrə təcrübə və tətbiqi tədqiqatlar** | **1 015 000** |
| 1.9.2.1. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ("Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalı) | 1 015 000 |
| **1.10.** | **Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi** | **506 180 967** |
| **1.10.1.** | **kənd təsərrüfatı** | **469 844 970** |
| 1.10.1.1. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 7 701 789 |
| 1.10.1.2. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti | 972 229 |
| 1.10.1.3. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti | 24 393 176 |
| 1.10.1.4. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti | 3 654 518 |
| 1.10.1.5. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı əmlakının sığortalanması üçün sığorta haqqının dövlət büdcəsi hesabına ödənilən hissəsi) | - |
| 1.10.1.6. | Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 190 082 423 |
| 1.10.1.7. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi | 29 836 000 |
| 1.10.1.8. | "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti | 200 284 632 |
| 1.10.1.9. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində "Aqrokompleks") | 2 979 983 |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| 1.10.1.10. | kənd təssərüfatı, meşə təsərüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 9 940 220 |
| **1.10.2.** | **meşə təsərrüfatı** | **11 970 884** |
| 1.10.2.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 11 970 884 |
| **1.10.3.** | **balıqçılıq və ovçuluq** | **2 747 355** |
| 1.10.3.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 747 355 |
| **1.10.4.** | **ətraf mühitin mühafizəsi** | **14 624 378** |
| 1.10.4.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12 970 378 |
| 1.10.4.2. | su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 1 654 000 |
| **1.10.5.** | **hidrometeorologiya tədbirləri** | **6 993 380** |
| 1.10.5.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 993 380 |
| **1.11.** | **Sənaye, tikinti və faydalı qazıntılar** | **2 707 364 428** |
| **1.11.1.** | **Tikinti** | **2 690 514 668** |
| 1.11.1.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 689 301 330 |
| 1.11.1.2. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 213 338 |
| 1.11.1.3. | müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | - |
| **1.11.2.** | **faydalı qazıntılar** | **12 349 760** |
| 1.11.2.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 5 599 766 |
| 1.11.2.2. | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik | 6 749 994 |
| **1.11.3.** | **geodeziya və xəritəçəkmə** | **4 500 000** |
| 1.11.3.1. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi | 4 500 000 |
| **1.12.** | **Nəqliyyat və rabitə** | **101 473 406** |
| **1.12.1.** | **nəqliyyat** | **100 190 406** |
| 1.12.1.1. | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10 010 000 |
| 1.12.1.2. | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 30 000 000 |
| 1.12.1.3. | ləğv olunmuş Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası | 4 322 067 |
| 1.12.1.4. | ləğv olunmuş Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi | 45 979 759 |
| 1.12.1.5. | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 5 000 000 |
| 1.12.1.6. | yerli icra hakimiyyəti orqanları (Sumqayıt və Gəncə şəhərləri üzrə avtomobil nəqliyyatı fəaliyyətinin tənzimlənməsi) | 397 736 |
| 1.12.1.7. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 1 112 803 |
| 1.12.1.8. | rabitə, informasiya, kommunikasiya sahələrində tədbirlər | 2 300 000 |
| 1.12.1.9. | ləğv olunmuş Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi (avtomobil nəqliyyatı fəaliyyətinin tənzimlənməsi) | 1 068 041 |
| **1.12.2.** | **rabitə** | **1 283 000** |
| 1.12.2.1. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 1 283 000 |
| 1.12.2.1.1. | universal poçt rabitəsi xidməti göstərilməsi və digər tədbirlərlə bağlı yaranan zərərin örtülməsi | 1 200 000 |
| 1.12.2.1.2. | informasiya ehtiyatları və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinin aparılması | 83 000 |
| 1.12.2.2. | rabitə, informasiya, kommunikasiya sahələrində tədbirlər | - |
| **1.13.** | **İqtisadi fəaliyyət** | **775 524 821** |
| **1.13.1.** | **iqtisadi və kommersiya fəaliyyəti** | **178 246 208** |
| 1.13.1.1. | sahibkarlığa dəstək | 28 246 208 |
| 1.13.1.1.1. | dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 22 315 264 |
| 1.13.1.1.2. | qeyri-neft məhsullarının ixracı ilə bağlı tədbirlər | 5 930 944 |
| 1.13.1.2. | Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi | 150 000 000 |
| **1.13.2.** | **iqtisadi fəaliyyətin digər sahələri** | **595 939 203** |
| 1.13.2.1. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 9 676 617 |
| 1.13.2.1.1. | xarici qrantlar hesabına həyata keçirilən layihələr | 9 676 617 |
| 1.13.2.2. | ləğv olunmuş Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ("Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti) | 18 000 000 |
| 1.13.2.3. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminin yaradılması) | 1 125 500 |
| 1.13.2.4. | maliyyə sağlamlaşdırılması tədbirləri, o cümlədən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin nizamnamə kapitalının artırılması, həmin müəssisələrin fəaliyyəti ilə əlaqədar zərərin ödənilməsi də daxil olmaqla, bəzi öhdəliklərin tənzimlənməsi, təcrübə və tətbiqi tədqiqatlar və ekspertlərin cəlb edilməsi | 9 998 000 |
| 1.13.2.5. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 6 042 844 |
| 1.13.2.6. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Yüksək Texnologiyalar Parkına verilən maliyyə yardımı) | 491 762 |
| 1.13.2.7. | bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki iqtisadi əsaslandırmanın hazırlanması xərcləri | 5 000 000 |
| 1.13.2.8. | Əmanətlərin Sığortalanması Fondunun nizamnamə kapitalının artırılması | 545 604 480 |
| **1.13.3** | **İqtisadi Fəaliyyət sahələri üzrə təcrübə və tətbiqi tədqiqatlar** | **1 339 410** |
| 1.13.3.1. | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | 1 339 410 |
| **1.14.** | **Əsas bölmələrə aid edilməyən xidmətlər** | **1 614 638 243** |
| **1.14.1.** | **məqsədli büdcə fondları** | **297 000 000** |
| 1.14.1.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 297 000 000 |
| **1.14.2.** | **ehtiyat fondlar** | **396 209 542** |
| 1.14.2.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 197 500 232 |
| 1.14.2.2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 198 709 310 |
| **1.14.3.** | **əsas bölmələrə aid edilməyən sair xərclər** | **921 428 701** |
| 1.14.3.1. | beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 19 049 914 |
| 1.14.3.1.1. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər | 7 999 920 |
| 1.14.3.1.2. | beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər | 11 049 994 |
| **1.14.3.2.** | **fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər** | **19 467 845** |
| 1.14.3.2.1. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 19 467 845 |
| **1.14.3.3.** | **digər xidmətlər üzrə xərclər** | **882 910 942** |
| 1.14.3.3.1. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası) | 999 219 |
| 1.14.3.3.2. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların hazırlanması və lisenziya blanklarının çap edilməsi) | 7 699 301 |
| 1.14.3.3.3. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 25 292 037 |
| 1.14.3.3.3.1. | xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 9 105 996 |
| 1.14.3.3.3.2. | valyuta konvertasiyası | 1 706 626 |
| 1.14.3.3.3.3. | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması, digər işlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 3 344 648 |
| 1.14.3.3.3.4. | beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 378 337 |
| 1.14.3.3.3.5. | məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və digər xidmətlər | 10 756 430 |
| 1.14.3.3.4. | əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 4 088 761 |
| 1.14.3.3.5. | ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 8 891 854 |
| 1.14.3.3.6. | dövlət maddi və material ehtiyatlarının yaradılması | - |
| 1.14.3.3.7. | sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 9 699 999 |
| 1.14.3.3.8. | əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 117 076 193 |
| 1.14.3.3.9. | islahatlarla bağlı xərclər | 695 380 000 |
| 1.14.3.3.10. | yerli xərclərdə nəzərdə tutulmayan sosial-iqtisadi və digər təyinatlı tədbirlər | 11 432 450 |
| 1.14.3.3.11. | şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 2 351 128 |
| **2.15.** | **2017-ci ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği** | **56 468 179** |

**2.** Müəyyən edilsin ki:

*2.1.* "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsindəki cədvəlin 1.14-cü və 1.22-ci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*2.2.* həmin Qanunun 2-ci maddəsindəki cədvəlin 1.14-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu, 1.22-ci bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzərdə tutulur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2018-ci.**

## Azərbaycanın Baş naziri Paris şəhərinə səfərə yola düşüb



İyunun 11-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə namizədliyi münasibətilə keçiriləcək tədbirlərdə iştirak etmək üçün Fransanın paytaxtı Paris şəhərinə səfərə yola düşüb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

AZƏRTAC

## Bakıda Rusiya Günü münasibətilə qəbul təşkil edilib





**İyunun 11-də Bakıda Rusiyanın dövlət bayramı - Rusiya Günü münasibətilə qəbul təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycanın və Rusiyanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Qəbulda çıxış edən Rusiyanın Azərbaycanda yeni təyin olunmuş səfiri Mixail Boçarnikov ölkəsinin keçidi yi inkişaf yolu barədə məlumat verib.

Səfir Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafından danışaraq əməkdaşlığın sabit şəkildə davam edəcəyinə əminliyini bildirib: "Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə saxlanmasında dövlət başçılarının böyük rolu var və gələcəkdə bu ənənənin davam edəcəyinə heç bir şübhəm yoxdur". O vurğulayıb ki, dostluq və tərəfdaşlıq, eyni zamanda, yaxşı qonşuluq münasibətləri Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın bütün sahələrini əhatə edir. Parlamentlərarası əlaqələr yüksək səviyyədədir. Humanitar istiqamətdə, eləcə də enerji, nəqliyyat, logistika sahələrində əməkdaşlıq genişlənir. Ticarət dövriyyəsini artırmaq istiqamətində işlər görülür.

Diplomat, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı təbriklərini çatdırıb.

Qəbulda çıxış edən Milli Məclis sədrinin müavini Valeh Ələsgərov Azərbaycan hökuməti adından Rusiya xalqını təbrik edib. O, hər iki ölkənin əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. Valeh Ələsgərov əlaqələrimizin əsasında ölkə rəhbərlərinin, hökumətlərin, eləcə də parlamentlərin mühüm rolunu qeyd edib. Vurğulayıb ki, əməkdaşlığın yüksək səviyyədə olması üçün ümidverici əsas şübhəsiz ki, ölkələrimizin prezidentləri arasında olan etibarlı münasibətlərdir. Azərbaycan və Rusiya bütün prioritet sahələrdə, o cümlədən diplomatik, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı möhkəmləndirməyə davam edəcək.

Milli Məclis sədrinin müavini deyib ki, Azərbaycanın Rusiya subyektləri ilə əlaqələri də inkişaf edir və humanitar sahədə əməkdaşlıq yüksək səviyyədədir. "Biz birgə səylərlə strateji tərəfdaşlıq əlaqələrini xalqlarımızın və dövlətlərimizin maraqları, regionda sülhün təminatı naminə daha yüksək səviyyəyə çatdıra bilərik", - deyə o əlavə edib.

AZƏRTAC

## İyunun 12-də Türkiyədə TANAP-ın açılış mərasimi keçiriləcək

**İyunun 12-də Trans-Anadolu qaz boru kəmərinin (TANAP) açılış mərasimi keçiriləcək. Bu kəmər vasitəsilə Azərbaycan təbii qazı Türkiyəyə, oradan da Avropaya nəql olunacaq.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Türkiyənin Əskişəhər bölgəsində təntənəli mərasim təşkil ediləcək.

Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə reallaşdırılan qlobal layihələrdən - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolundan sonra TANAP-ın da istifadəyə verilməsi bölgənin taleyini dəyişdirəcək əhəmiyyətli hadisə adlandırılır.

Cənub Qaz Dəhlizinin önəmli bir hissəsini təşkil edən TANAP-ın çəkilməsi ilə bağlı müqavilə 2012-ci ildə imzalanıb. Qaz boru kəmərinin təməli 2015-ci il martın 17-də Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin iştirakı ilə qoyulub.

Təməlqoyma mərasimində TANAP-ın əhəmiyyəti barədə danışan Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Bizim bu günə qədər Türkiyə və Gürcüstan ilə bərabər təşəbbüs kimi irəli sürdüyümüz bütün layihələr uğurla nəticələndi - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum. Bakı-Tbilisi-Qars da uğurla nəticələnir. Ona görə dəməndə heç bir şübhə yoxdur ki, Cənub Qaz Dəhlizi və onun önəmli hissəsi olan TANAP da uğurla nəticələnəcək. Bu, şaxələndirmə layihəsidir. Avropaya və Türkiyəyə yeni mənbədən böyük həcmdə əlavə qaz nəql ediləcəkdir. Hazırda Avropa üçün yeganə mövcud olan yeni qaz mənbəyi "Şahdəniz" qazıdır, Azərbaycan qazıdır".

Göründüyü kimi, layihə nəzərdə tutulduğu vaxtda uğurla reallaşdırılıb.

Dövlətimizin başçısı TANAP-ı enerji təhlükəsizliyi layihəsi adlandırmaqla yanaşı qeyd edib ki, o, ilk növbədə, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı layihəsidir.

Qeyd edək ki, ilkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz nəql olunacaq. Daha sonrakı üç il ərzində bu həcm 6 milyard kubmetrə çatdırılacaq.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşəcək. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir. Kəmərin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.

AZƏRTAC

## Azərbaycan XİN Ermənistan nazirinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclasındakı çıxışına münasibət bildirib

**Ermənistanın xarici işlər nazirinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclasındakı çıxışı və Ermənistan Xarici İşlər Nazirliyinin cəbhədəki vəziyyətlə əlaqədar açıqlaması ziddiyyətli xarakter daşıyır və özü-özünü ifşa edir. Bir tərəfdən münaqişədə tərəf kimi Ermənistanın məsuliyyətini gizlətməyə çalışan Ermənistan Xarici İşlər Nazirliyi digər tərəfdən bu açıqlamalarla Ermənistanın münaqişə tərəfi olduğunu bir daha təsdiq edir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistan xarici işlər nazirinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclasındakı çıxışına və Ermənistan Xarici İşlər Nazirliyinin cəbhədəki vəziyyətlə əlaqədar şərhinə münasibət bildirərkən deyib.

"Məntiqi sual ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının Azərbaycanın suveren ərazilərində nə işi var? Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq və ərazi ekspansiyası siyasətinin nəticəsi olaraq Ermənistan gəncləri həyatlarının ən formativ dövrlərini səngərlərdə keçirməyə və işğal siyasətinə xidmət etməyə məcbur edilirlər", - deyə XİN rəsmisi qeyd edib.

Hikmət Hacıyev bildirib ki, Ermənistanın qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğu qoşunların təmas xətti boyunca insidentlərin və təxribatların yaranmasının əsas səbəbidir və regional sülh üçün ciddi təhlükədir. Bu kimi halların baş verməsinin qarşısını almaq üçün Ermənistan qoşunları BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı və işğal siyasətinə son qoyulmalıdır. Yalnız bundan sonra regionda davamlı sülh və sabitliyi təmin etmək mümkündür.

AZƏRTAC

## Müdafiə Sənayesi Nazirliyi ilə "Rheinmetall" şirkəti arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb





**İyunun 11-də Parisdəki "Villepinte" sərgi mərkəzində Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin (MSN) də təmsil olunduğu "EUROSATORY-2018" Beynəlxalq müdafiə və təhlükəsizlik sərgisinin rəsmi açılışı olub.**

AZƏRTAC xəbər verir ki, sərgidə Azərbaycanı Baş nazirin birinci müavini Yaqub Eyyubov və müdafiə sənayesi naziri Yavər Camalovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edir.

Dünyanın inkişaf etmiş ölkələrindən qabaqcıl şirkətlərin qatıldığı sərgidə MSN-in müəssisələrində istehsal edilən 270 addan çox silah sistemləri, müxtəlif çaplı döyüş sursatları, "Tufan", "Matador", "Marauder" kimi zirehli və mina əleyhinə nəqliyyat vasitələri, "Gürzə" patrul maşını nümayiş olunur. NATO standartlarına tam cavab verən "Yalquzaq" (7,62 mm) və "Vaşaq" (8,6 mm) snayperləri, hücum pulemyotu (62 mm, HP-7,62), eləcə də məsafədən idarə olunan döyüş modulu sərgi iştirakçılarının və ziyarətçilərin diqqətini xüsusilə cəlb edib. Silahla (12,7 mm) təchiz edilmiş məsafədən idarə olunan döyüş modulu və "NST-14,5" iriçaplı snayper tüfəngi ilk dəfə bu sərgidə nümayiş etdirilir. "EUROSATORY" sərgisində ilk dəfə təmsil olunan MSN-in nümayiş etdirdiyi məmulatlar ziyarətçilər tərəfindən böyük maraqla qarşılanır.

Sərginin birinci günündə Baş nazirin birinci müavini Yaqub Eyyubovun və müdafiə sənayesi naziri Yavər Camalovun Fransanın "Thales" şirkətlər qrupunun regional direktoru ilə görüşü olub. Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Həmçinin nazir Yavər Camalovun Fransanın "Nexter" şirkətinin nümayəndə heyəti ilə görüşündə ikitərəfli əməkdaşlığa dair danışıqlar aparılıb.

Eyni zamanda, Yavər Camalov Almaniyanın "Rheinmetall" şirkətinin nümayəndə heyəti ilə də görüşüb. Görüşün sonunda Müdafiə Sənayesi Nazirliyi ilə "Rheinmetall" şirkəti arasında ikitərəfli əməkdaşlığa dair niyyət protokolu imzalanıb.

Görüşlərdə Bakının Beynəlxalq Sərgilər Bürosu tərəfindən 2025-ci ildə keçiriləcək "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyi ilə bağlı namizədliyinin dəstəklənməsi barədə geniş müzakirələr aparılıb.

Sərgidə iştirak edən şirkətlər Azərbaycanın stendinə və ölkəmizin hərbi təyinatlı məhsullarına böyük maraq göstəriblər.

"EUROSATORY-2018" Beynəlxalq müdafiə və təhlükəsizlik sərgisi iyunun 15-dək davam edəcək.

AZƏRTAC

## Bakıda XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisi açılıb



**İyunun 11-də Bakıda XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika (TransCaspian/Translogistica 2018) sərgisi açılıb.**

AZƏRTAC-ın məlumatına görə, XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika (TransCaspian/Translogistika 2018), VIII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat (RoadTraffic 2018) sərgilərinin açılış mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə deyib ki, bu il keçirilən sərgilər, hər il olduğu kimi, iştirakçılar arasında işgüzar əlaqələrin və ünsiyyətin qurulmasına, təcrübə mübadiləsinin aparılmasına və nəqliyyatın genişləndirilməsinə xidmət edəcək.

R.Quluzadə ölkəmizdə etibarlı, sürətli və təhlükəsiz nəqliyyat sisteminin yaradılması və ölkə ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi məqsədilə infrastruktur yenilənməsi, multimodal logistika sistemlərinin təkmilləşdirilməsinə böyük önəm verildiyini qeyd edib.

"Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycanın qlobal nəqliyyat logistika mərkəzinə çevrilməsi üçün dövlət siyasətini müəyyən edən bir sıra qərarlar imzalayıb. Azərbaycan Qafqaz regionundan keçən Avrasiya nəqliyyat bağlantılarının inkişafı üzrə bir sıra layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu qərarlar böyük infrastruktur layihələrinin həyata keçirilməsi ilə yanaşı, sahənin idarə olunması, normativ hüquqi bazanın daim təkmilləşdirilməsi və ən müasir standartların tətbiqinə imkan verir. Bu layihələrdən 2017-ci ilin oktyabrında istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti bölgə üçün strateji əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Qars, Çin də daxil olmaqla, Uzaq Şərqdən Avropa istiqamətinə və geriyə daha etibarlı, səmərəli və təhlükəsiz daşımaların həyata keçirilməsinə töhfə verəcək", - deyə R.Quluzadə vurğulayıb.

Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanını Xəzər dənizi hövzəsində ən böyük liman kompleksi adlandıran nazir qeyd edib ki, yeni liman bölgədə ən əhəmiyyətli tranzit nöqtəsi olaraq "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə yük və sərnişindaşımalarının həyata keçirilməsində əsas rol oynayacaq.

Nazir, həmçinin infrastrukturun yenilənməsi və inkişafı, çoxfunksiyalı logistika sistemlərinin yaradılması, daşımaların təhlükəsizliyini təmin edən nəqliyyat sisteminin təkmilləşdirilməsi üçün gələcəkdə çox işlər görülməli olduğunu da söyləyib.

"İTE Group" şirkətinin regional direktoru Edvard Stron bildirib ki, "TransCaspian/Translogistica" sərgisi Böyük Britaniyanın "İTE Group" şirkətlər qrupu tərəfindən təşkil olunan "TransRussia" (Moskva), "TransPoland" (Varşava), "TransUzbekistan" (Daşkənd), "TransUkraine" (Kiyev) və "TransKazakhstan" (Almatı) kimi ixtisaslaşmış nəqliyyat-logistika sərgiləri, eləcə də "BreakBulk" beynəlxalq sərgilər (Antverpen, Hyuston, Şanxay, Əbu-Dabi, Kuala-Lumpur) və digər tədbirlər silsiləsinə daxildir.

O qeyd edib ki, sərgi iştirakçılarının 30 faizdən çoxunu debütantlar təşkil edir və onların arasında dəniz daşımalarını həyata keçirən şirkətlər (Abşeron Logistika Mərkəzi, Türkmənbaşı Beynəlxalq Dəniz Limanı), dəmir yolu daşımaları sahəsində ixtisaslaşan şirkətlər ("ADY Container"), avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar üzrə şirkətlər (Belarusun "APS Solver" şirkəti, Litvanın "Arijus UAB" şirkəti), hava nəqliyyatı şirkətləri ("Silk Way Group" şirkəti) yer alır. Sərgidə bir sıra yeniliklər təqdim olunacaq. Belə ki, "AzRusTrans" şirkəti tranzit daşımalar üzrə alternativ imkanları nümayiş etdirəcək, "Texnovotum" şirkəti isə ziyarətçilərə avtomatlaşdırılmış lazer skaneri və defektoskopiya kimi məhsullarını təklif edəcək.

Qeyd edək ki, sənaye müəssisələrinin yeni məhsul və nailiyyətlərini nümayiş etdirən və mahiyyət etibarı ilə bir çox cəhətdən nəqliyyat sektorunun gələcək inkişaf vektorunu müəyyənləşdirən bu sərgi Xəzər regionunda aparıcı nəqliyyat tədbirlərindən biridir. Sərgidə əsas dövlət nəqliyyat qurumları, eləcə də dəmiryol sektoru, dəniz sənayesi, aviasiya, kommersiya təyinatlı nəqliyyat, daşıma və logistika xidmətləri sahəsində fəaliyyət göstərən kommersiya şirkətləri bir arada toplanır. Sərgi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, TRACECA, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənir.

Bu il "TransCaspian/Translogistica" sərgisində dünyanın 15 ölkəsini təmsil edən 85 şirkət iştirak edir. Azərbaycan, Belarus, Litva, Rusiya, Türkmənistan, Türkiyə, Ukrayna, Yunanıstan və digər ölkələri təmsil edən şirkətlər nəqliyyat sahəsinin geniş məhsul və xidmətlər çeşidini (yükdaşımalar, lokomotiv, sərnişin və yük vaqonlarının istehsalı, hərəkət heyətinin təmiri, dəmiryol nəqliyyatı üçün komplektləşdirici hissələr, gəmiqayırma və gəmi təmiri, liman xidmətləri, kommersiya təyinatlı nəqliyyat vasitələri üçün ehtiyat hissələri və sair) təqdim edir. Sərgidə nəqliyyat şirkətləri ilə yanaşı, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi kimi dövlət nəqliyyat qurumları da iştirak edirlər. Qeyri-neft sektorunun artması ilə əlaqədar olaraq, respublikada logistika şirkətlərinin sərgiyə marağı əhəmiyyətli dərəcədə artıb. "TransCaspian/Translogistica" sərgisinin ziyarətçiləri arasında bir nəçə nümayəndə heyəti də var. Belə ki, builki sərginin qonaqları arasında Ukrayna, Türkiyə, Rusiya, Gürcüstan və Qazaxıstanın dəmir yolu şirkətlərinin nümayəndələri, eləcə də Dəmir Yolları Əməkdaşlıq Təşkilatı ("DYƏT") və Qazaxıstan Respublikası İnvestisiya və İnkişaf Nazirliyinin nümayəndələri yer alır. Beləliklə, "TransCaspian/Translogistica" sərgisi həm Azərbaycanın, həm də region ölkələrinin dövlət nəqliyyat strukturlarını təmsil edən rəhbər və mütəxəssislərlə görüşmək, perspektiv dövlət infrastruktur layihələri ilə tanış olmaq, eləcə də yeni işgüzar müqavilələr imzalamaq üçün yük sahibləri, sənaye müəssisələrinin rəhbərləri, avtomobil parklarının sahibləri və müvafiq profilli sektorları təmsil edən digər maraqlı tərəflərlə görüşmək üçün unikal imkandır.

VIII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat (Road & Traffic 2018) sərgisinin məqsədi yol-tunel inşaatı, yol hərəkətinin idarə edilməsi sahəsində müasir informasiya texnologiyalarının tətbiqi və ictimai nəqliyyat sahəsi üzrə istehsalçı və operatorların görüşü üçün şərait yaratmaq, eləcə də yol təhlükəsizliyi ilə bağlı problemlərin həlli yolları üzrə əldə olunan ən son nailiyyətləri nümayiş etdirməkdir. "Road & Traffic" - regionun ən böyük ixtisaslaşmış sərgilərindən biridir və sərgi yol infrastrukturunun inkişafının bütün aspektlərini əhatə edərək, yalnız yol deyil, eyni zamanda, nəqliyyat və tikinti sənayesi ilə məşğul olan mütəxəssislər arasında yüksək qiymətləndirilir. Bu sərgi də Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Nəqliyyat Agentliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənir.

Sərgidə Azərbaycan, ABŞ, Belarus, İran, Polşa, Rusiya, Türkiyə və ilk dəfə olaraq Slovakiyanı təmsil edən şirkətlər yol və tunellərin layihələndirilməsi və tikintisi, yol təhlükəsizliyi vasitələri, şəhər infrastrukturunun layihələndirilməsi üçün proqram təminatı, yol maneələri, nəqliyyatı intellektual idarəetmə sistemləri, elektron yol monitorları, avtobuslar və bir sıra digər xidmət və məhsullar "Road & Traffic 2018" sərgisində təqdim edirlər.

Yerli iştirakçıların arasında Bakı Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Dövlət Avtomobil Nəqliyyatı Xidməti də var. Builki sərginin debütantları arasında isə "Macina TST" (Belarus), "Paya Tadbir Pakan" (İran), "Pietrucha" (Polşa), "SORB Group" (Rusiya) və "Molpir" (Slovakiya) vardır. Sərgidə ilk dəfə iştirak edən Rusiyanın Yaroslavl vilayətinin istehsalçıları tədbirdə ayrıca stendlə iştirak edirlər. Sərgi eksponentləri yolların tikintisi və saxlanılması üçün bir sıra məhsul və xidmətləri, layihələndirilmə və tikinti, yol-inşaat texnikası, yol tikintisi üçün geosintetik materiallar, yol hərəkəti idarəetmə sistemləri üçün avadanlıqlar, elektron yol monitorları, "QAZ" avtobuslarının yeni modelləri və sair məhsullarını təqdim edirlər.

"Road &Traffic 2018" sərgisi regionun aparıcı yol-tikinti şirkətlərinin rəhbər və mütəxəssisləri ilə görüşlər keçirmək üçün ideal şərait yaratmaqla yanaşı, Bakıda və Azərbaycanın digər böyük şəhərlərində ictimai nəqliyyatın optimallaşdırılması üzrə hökumətin mövcud infrastruktur layihələri, eləcə də perspektiv planları ilə yaxından tanış olmağa imkan verir.

Bu il sərginin işgüzar proqramı çərçivəsində Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən Bakı Ekspo Mərkəzinin 22 nömrəli otağında "Nəqliyyat Xidmətinin Yeni Yol Planı" mövzusunda konfrans keçirilib. Konfransın sonunda Dövlət Avtomobil Nəqliyyatı Xidməti ilə ali məktəblər arasında qarşılıqlı əməkdaşlıq memorandumları imzalanıb. Həmçinin sərginin ikinci işgünü "B2B" formatlı ikitərəfli işgüzar görüşlər keçiriləcək və bu görüşlər sayəsində iştirakçılar yeni məhsul və xidmətləri təqdim və kəşf etmək, yeni biznes imkanlarını araşdırmaq, potensial müştərilər tapmaq və işgüzar təcrübə mübadiləsi aparmaq məqsədilə aparıcı yerli şirkətlərlə görüşə biləcəklər.

"Road &Traffic 2018" sərgisi XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika "TransCaspian/Translogistica 2018" sərgisi ilə eyni meydançada keçirilir. Sərgilərin təşkilatçıları "İteca Caspian" şirkəti əl sənətkarlığının inkişafına daim dəstəkləyib. Həmçinin Bakı Ekspo Mərkəzində azərbaycanlı usta Rövşən Ənsarinin əl işlərindən ibarət olan sərgi stendi ziyarətçilər üçün əsl sürpriz olub. Stenddə müxtəlif dövr və ölkələrə aid olan gəmi modellərin növləri, eləcə də buxar lokomotivləri (parovozlar) nümayiş olunur.

Sərgilərin təşkilatçıları qismində "İteca Caspian" və "İTE Group" şirkətləri çıxış edirlər. 2018-ci ildə "İteca Caspian" şirkətinin tərəfdaşları arasında rəsmi səyahət agentliyi "Premier Tour" şirkətləri, o cümlədən "Hyatt Regency" və "Qafqaz Point Hotel" mehmanxanaları (rəsmi otellər) yer alır. Bu il təşkilatçılar "Bagcam.az" uşaq bağçaları şəbəkəsi ilə əməkdaşlığa başlayıblar. Bu şəbəkə sərgidə uşaqlar üçün əyləncə zonası yaradacaq və valideynlər öz uşaqlarını bu təhlükəsiz zonaya ötürdükdən sonra sərgi stendlərini rahat şəkildə ziyarət edə biləcəklər. Uşaqlar üçün əyləncə zonası Bakı Ekspo Mərkəzinin foyesində yerləşir və burada "Bagcam.az" şəbəkəsinin peşəkar müəllim və tərbiyəçiləri uşaqları maarifləndirici oyunlara, habelə faydalı və əyləncəli tədbirlərə cəlb edirlər. Sərgilər peşəkar ziyarətçilər üçün iyunun 11-13-də, tələbələr üçün isə iyun ayının 13-də açıq olacaq.

AZƏRTAC

# Məcburi köçkünlərlə bağlı həyata keçiriləcək layihələrə dair əməkdaşlıq məsələləri müzakirə olunub



**İyunun 11-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Cənubi Qafqaz üzrə regional nümayəndəliyinin rəhbəri Yohannes van der Klaus və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio de Angelislə görüşüb.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, sədr ölkəmizdə məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı dövlət səviyyəsində irihəcmli layihələrin həyata keçirildiyini söyləyib. Qeyd olunub ki, məcburi köçkünlərin sosial problemlərinin həlli Prezident İlham Əliyevin daim diqqət mərkəzində olub və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, irihəcmli proqramlar icra edilir.

Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Sərəncam tarixi hadisədir. Cocuq Mərcanlı Azərbaycan xalqının əzəli torpaqlarına qayıdışının simvoludur. Bu kəndin bərpası xalqımızın işğal altında olan digər ərazilərimizi də geri qaytarmaq əzmində olduğunu qəti şəkildə nümayiş etdirir.

Dövlət Komitəsinin sədri BMT QAK-ın məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı müxtəlif layihələr həyata keçirdiyini diqqətə çatdırıb. Təşkilatın ölkəmizdəki uzunmüddətli və davamlı fəaliyyəti müsbət dəyərləndirilib.

Furio de Angelis Cocuq Mərcanlıda məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasından sonra görülən işlərdə yaxından iştirak etdiyini və kənddə qiymətləndirmə apardıqlarını bildirib. O, BMT QAK-ın Azərbaycanda məcburi köçkünlərlə bağlı bir sıra layihələr həyata keçirməyi planlaşdırdığını deyib.

Görüşdə, eyni zamanda, iyunun 20-də Ümumdünya Qaçqınlar Gününün qeyd edilməsi ilə bağlı müzakirələr aparılıb. Məcburi köçkünlərlə bağlı həyata keçiriləcək layihələr ətrafında əməkdaşlıq perspektivləri müzakirə olunub.

**AZƏRTAC**

# Rupert Eynli: Böyük Britaniya Azərbaycan ilə strateji əməkdaşlığın möhkəmləndirilməsinə böyük əhəmiyyət verir



**Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev iyunun 11-də Böyük Britaniya Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya Direktoratlığının rəhbəri Rupert Eynli ilə görüşüb. Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.**

Dövlət Komitəsinin sədri Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş bir milyondan çox məcburi köçkünün sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı görülən işlər barədə qonağa ətraflı məlumat verib. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılır. Birinci vitse-prezident xanım Mehriban Əliyeva tərəfindən də bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bütün bunların nəticəsində 300 minə yaxın məcburi köçkün yeni mənzillərlə təmin olunub.

Qeyd edilib ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan məcburi köçkünlərin öz evlərinə qayıtmaları ilə artıq respublikanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış sakinlərin doğma yurda qayıdışı başlayıb. Azərbaycan Prezidenti İlham Əliyevin Cocuq Mərcanlının bərpası ilə bağlı Sərəncamına əsasən, kənddə birinci mərhələdə 50 ev tikilib istifadəyə verilib. İkinci mərhələdə tikilən 100 yaşayış evindən 50-nə kəndin respublikanın müxtəlif yerlərində məskunlaşmış sakinləri köçürülüb. Məcburi köçkünlərin Cocuq Mərcanlıya qayıdışı davam edir.

Böyük Britaniya Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya Direktoratlığının rəhbəri Rupert Eynli ölkəsinin Azərbaycan ilə strateji əməkdaşlığın möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğulayıb. Böyük Britaniyanın humanitar təşkilatlarının bundan sonra da Azərbaycanda məcburi köçkünlərlə bağlı layihələrin həyata keçirilməsində maraqlı olduğunu deyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

**AZƏRTAC**

*12 iyun – Rusiya Federasiyasının müstəqillik günüdür*

# Azərbaycan-Rusiya əməkdaşlığı güclənir

**Rusiya Federasiyasının 2000-ci ildə təsdiq olunmuş xarici siyasət konsepsiyasında qeyd olunub ki, bu dövlət müasir dünyanın nüfuzlu güc mərkəzlərindən biridir. Ölkənin mütərəqqi inkişafı onun iqtisadiyyatının yüksəlişi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, demokratik dəyişikliklərin uğurla həyata keçirilməsi, konstitusiya quruluşunun əsaslarının möhkəmləndirilməsi, insan azadlıqlarına və hüquqlarına əməl olunması üçün əlverişli xarici şəraitin yaradılmasından çox asılıdır.**

Hazırda Rusiya beynəlxalq münasibətlərin ən başlıca iştirakçılarından biridir. O, həm də iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin "Böyük iyirmiliyinə" daxildir. Əvvəllər həm də "Böyük səkkizliyə" daxil idi (2014-cü ildə orada üzvlük dayandırıldı). Rusiya Belorus ilə birlikdə - "Rusiya və Belorus İttifaq Dövləti"ni yaradıb. Hazırda RF dünyanın 190-dan çox dövləti ilə diplomatik münasibətlərə malikdir.

Azərbaycanın müstəqillik əldə etməsindən sonra onun xarici siyasətinin mühüm istiqamətlərindən birini Rusiya ilə münasibətlər təşkil etmişdir. Bu iki ölkəni çoxəsrlik dostluq əlaqələri, müəyyən müştərək tarix və mədəniyyət, insanlar arasında mənəvi tellər birləşdirir.

Hər il iyun ayında öz müstəqilliyinin ildönümünü qeyd edən Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci il aprelin 4-də Bakıda imzalanmış müvafiq protokol əsasında qurulmuşdur. Bu münasibətlər qarşılıqlı maraqlara əsaslanır və hər iki tərəfin təhlükəsizliyinə xidmət edir. Məhz elə həmin ildən etibarən Azərbaycanın Moskvada, Rusiyanın isə Bakıda səfirlikləri fəaliyyətə başlamışdır.

1993-cü ilin yayından müstəqil Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev Rusiya ilə dostluq münasibətlərinin qurulmasında mühüm rol oynadı, iki ölkə arasında strateji tərəfdaşlığın əsasları qoyuldu.

Maraqlıdır ki, müstəqillik illərində Azərbaycanın xarici siyasətində ən çox fəallıq onun şimal qonşusu ilə münasibətlərində müşahidə olunmuşdur. Bu əlaqələrin sıxlaşmasını siyasi, iqtisadi, regional və mədəni amillər zəruri etmişdir. Təsadüfi deyil ki, ötən müddət ərzində dövlət və hökumət başçılarının qarşılıqlı surətdə onlarca işgüzar səfərləri baş tutmuşdur. Qarşılıqlı siyasi əməkdaşlığın inkişafı digər sahələrdə də əlaqələrin güclənməsinə müsbət təsir göstərmişdir ki, son illər biz bunun şahidi oluruq.

1995-ci ildə ölkədə xarici iqtisadi əlaqələrin liberallaşdırılması və bazar prinsipləri əsasında yenidən qurulması prosesinin başlanması iki ölkə arasında digər sahələrlə yanaşı, iqtisadi əlaqələrin də inkişafına təkan verdi. Bunun məntiqi davamı olaraq 1996-cı ildən iqtisadi əməkdaşlığa dair Azərbaycan-Rusiya hökumətlərarası komissiya öz fəaliyyətinə başladı. Artıq onun 16 iclası keçirilmişdir, 17-ci iclasın isə bu il Moskvada keçirilməsi nəzərdə tutulmuşdur. Bu komissiya ikitərəfli münasibətlərə dair konkret məsələlərin dövlət səviyyəsində həllini tənzimləyən işçi mexanizmdən ibarətdir.

İki ölkə arasında mövcud olan və daima inkişaf edən müqavilə-hüquq bazasının başlıca strateji xarakterli sənədi "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 1997-ci ildə imzalanmış müqavilə oldu. Həmin müqavilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Moskvaya etdiyi rəsmi səfəri çərçivəsində imzalanmışdır. Bu səfərdən sonra münasibətlər daha yüksək mərhələyə qədəm qoydu. Hazırda iki ölkə arasında müqavilə-hüquqi bazaya 200-dən çox dövlətlərarası, hökumətlərarası və regionlararası sazişlər daxildir.

2000-ci ildə Vladimir Putinin Rusiya Federasiyasının Prezidenti seçilməsi ilə qarşılıqlı münasibətlərin inkişafı yolunda bir sıra ciddi addımlar atıldı. Sonrakı illərdə də Azərbaycan ilə Rusiya arasında imzalanmış sənədlər və sazişlər imkan verir ki, bu münasibətləri strateji tərəfdaşlıq kimi xarakterizə edək. Artıq iki ölkə arasında möhkəm müqavilə-hüquqi baza yaradılmış, təkcə iqtisadi sahədə 30-dan çox sənəd imzalanmışdır. 2013-cü il avqust ayının 13-də Azərbaycana səfər edən Vladimir Putin azərbaycanlı həmkarı ilə siyasi problemləri və Dağlıq Qarabağla bağlı vəziyyəti müzakirə edib. Səfərin yekunlarına əsasən, neft və qaz hasilatı sahəsində əməkdaşlıq və iki dövlətin sərhədində avtomobil körpüsünün inşası ilə bağlı sazişlər imzalanıb.

Təsadüfi deyil ki, son 5 ildə 5 mindən çox iş adamının iştirakı ilə 30-dan artıq iqtisadi tədbir həyata keçirilmişdir. Rusiya Federasiyasının 4 subyekti ilə ölkəmiz arasında hökumətlərarası komissiya fəaliyyət göstərir, onun bir sıra subyektləri ilə iqtisadi-ticarət, elmi-texniki və mədəni sahələrdə sazişlər imzalanmışdır.

Qeyd etmək yerinə düşərdi ki, Azərbaycanla Rusiya arasında hər həftə 140 aviareys həyata keçirilir. Bu faktın özü iki ölkə arasında əlaqələrin hansı səviyyədə olduğunu göstərir.

İki ölkə arasında ticarət-iqtisadi münasibətlər Rusiya və Azərbaycan hökumətləri arasında azad ticarət haqqında 30 sentyabr 1992-ci il tarixli saziş və ondan sonra vaxtaşırı imzalanmış protokollar ilə tənzimlənir. 2002-ci il yanvarın 25-də iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında iki hökumət arasında imzalanmış saziş qarşılıqlı iqtisadi münasibətlərin inkişafında yeni mərhələ açdı. Sərmayə qoyuluşlarının qarşılıqlı müdafiəsi və həvəsləndirilməsi haqqında iki hökumət arasında bağlanmış 29 sentyabr 2014-cü il tarixli saziş isə əməkdaşlığı daha da gücləndirdi.

2006-cı ilin mart ayından Bakıda Rusiya Federasiyasının Ticarət nümayəndəliyinin fəaliyyətə başlaması qarşılıqlı ticarət mübadiləsinin artmasına müsbət təkan oldu. Həmçinin, Tatarıstanın və Dağıstanın nümayəndəlikləri Azərbaycanda fəaliyyət göstərirlər.

Son zamanlar ölkəmizin işgüzar dairələrində rusiyalı tərəfdaşları ilə sərmayə əməkdaşlığına maraq artır. Azərbaycanın "Azərsun Holding" şirkəti 2010-cu ilin sentyabr ayında Beloreçensk şəhərində (Krasnodar vilayəti) çay qablaşdırma fabrikini işə salmışdır. Şirkət hazırda ildə 50 milyon şərti banka gücündə meyvə-tərəvəz məhsullarının emalı üzrə konserv zavodunun layihəsini həyata keçirir. 2017-ci ildə Rusiyanın 70-dən artıq subyekti Azərbaycan ilə xarici ticarət əməliyyatında iştirak etmişdir. Belə ki, iki ölkə arasında ticarət dövriyyəsinin 81,8 faizi məhz bu regionların payına düşür. Rusiya Federasiyasının subyektləri Azərbaycan Respublikası ilə birbaşa əlaqələri inkişaf etdirirlər.

Moskva və Moskva vilayətinin, Dağıstan, Tatarıstan, Sankt-Peterburq, Həştərxan, Saratov və Sverdlovsk vilayətlərinin və digər regionların Azərbaycanla əməkdaşlıq barədə sazişləri vardır. Stavropol ölkəsinin, Həştərxan vilayətinin qubernatorları, Arxangelsk vilayəti qubernatorunun müavini Azərbaycana işgüzar səfər etmişlər. Bu zaman Həştərxan vilayətinin Bakıda biznes-forumu keçirilmiş, Sankt-Peterburqun mədəni-işgüzar nümayəndə heyəti, Tomsk vilayətinin işgüzar dairələrinin nümayəndələri Bakıya səfər etmişlər.

2017-ci ilin sentyabrında Stavropolda VIII Rusiya-Azərbaycan regionlararası forumu keçirildi. Onun işində hər iki ölkədən olan iri kompaniyaların, fərdi müəssisələrin 400-ə yaxın nümayəndəsi iştirak etmişdi.

Azərbaycanla Şimali Qafqaz federal dairəsi arasında ticarət dövriyyəsinin 80 faizdən çoxu isə Dağıstanın payına düşür. Dağıstan ilə birbaşa əlaqələrin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Hazırda Rusiya Federasiyasının 18 subyekti Azərbaycan hökuməti ilə əməkdaşlıq haqqında hüquqi tərtib olunmuş sənədlərə malikdir.

Rusiya Azərbaycan ilə ticarət-iqtisadi əlaqələrdə ikinci yeri tutur, Azərbaycan isə MDB dövlətləri arasında Rusiyanın ticarət tərəfdaşları sırasında beşinci yeri tutur. Təsadüfi deyil ki, son 4 ildə Rusiyanın subyektləri ilə 16 biznes forum, işgüzar görüş və sərgi keçirilmişdir.

2016-cı ildə Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuraları yaradıldı. 2017-ci il dekabrın 25-də Bakıda Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının genişləndirilmiş iclasları keçirildi. Bu iclasların yekunu olaraq iki ölkə kompaniyaları arasında niyyətlər haqqında beş memorandum imzalandı. Elə həmin gün Bakıda "Rusiya İxracat Mərkəzi"nin nümayəndəliyi açıldı.

Rusiya Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarından biridir və 2017-ci ilin yekunları üzrə (İtaliya və Türkiyədən sonra) ölkənin ümumi ticarət dövriyyəsində 9,48 faiz payla üçüncü yeri tutur, 17,7 faiz payla Azərbaycan idxalatında liderlik edir.

Rusiya qaynaqlarına görə, hazırda Rusiya-Azərbaycan ticarət dövriyyəsinin həcmi 2,6 milyard dollardan artıqdır. Azərbaycanın MDB ölkələri ilə ticarət dövriyyəmizin 50 faizdən çoxu Rusiyanın payına düşür.

Azərbaycanın Rusiyaya ixrac etdiyi malların strukturunda son zamanlar mineral məhsullar (ixracatın ümumi həcminin 53 faizindən çoxu) üstünlük təşkil edir. Ərzaq mallarının və kənd təsərrüfatı xammalının xüsusi çəkisi 19,1 faiz təşkil edir. Ərzaq malları və kənd təsərrüfatı xammalı qrupuna daxil olanlar piy və yağlar, onların fraksiyaları, ağ qənd və təmiz saxaroza, meşə qozları, fermentləşdirilmiş qara çay, tər meyvə və tərəvəzlər, çaxır-konyak məhsullarıdır. Metallar və onlardan hazırlanmış məmulatlar, maşın, avadanlıqlar və nəqliyyat vasitələri üstünlük təşkil edir.

Hazırda Azərbaycanda Rusiya kapitallı şirkətlər, Rusiyada isə Azərbaycan şirkətləri uğurla fəaliyyət göstərirlər. Azərbaycan bazarında 700 birgə kompaniya öz fəaliyyətini həyata keçirir. Bunlardan 300-ə yaxını sırf Rusiya kapitalı əsasında, 400-dən artıq kompaniya isə birgə müəssisə formatında fəaliyyət göstərir. Bunlar böyük göstəricidir. Buraya "LUKoyl" neft şirkəti, "Baltika" pivəbişirmə şirkəti, bank-maliyyə sektorunda "Nikoyl" investisiya-kommersiya bankı, Vneştorqbank (VTB) açıq səhmdar cəmiyyəti, "Rosselxozbank" bankı və digər müəssisələr daxildir.

2015-ci ilin fevralında Gəncə avtomobil zavodunda "KamAZ" markalı avtomobillərin yerli şəraitdə sənaye yığımının təşkili ilə bağlı iki ölkə arasında müqavilə imzalanıb. Bu məqsədlə zavodda qısa müddətdə yeni yığım xətti quraşdırılıb və ilk "KamAZ" avtomobillərinin yığımı təşkil olunub. Xəttin istehsal həcmi ildə 1.500 avtomobildir. Gələcəkdə bu zavodun məhsullarını üçüncü ölkələrə də göndərmək nəzərdə tutulmuşdur. Azərbaycanda "Avtovaz" kapitalının iştirakı ilə Lada avtomobillərinin satışı, servisi, texniki xidməti üzrə "Xəzər-Lada" birgə müəssisəsi fəaliyyət göstərir. Demək olar ki, ölkənin bütün regionlarında 40-dan çox texniki xidmət stansiyası onun ixtiyarındadır.

2016-cı ilin oktyabrında nəqliyyat sahəsində ilk birgə Azərbaycan-Rusiya müəssisəsi olan - "AzRusTrans"ın təqdimat mərasimi keçirildi. "Azərbaycan dəmir yolları" (51 faiz) və Rusiyanın iri kənd təsərrüfatı məhsulları tədarükçüsü "Rusaqrotrans" (49 faiz) kampaniyaları bu müəssisənin səhmdarları rolunda çıxış etdilər. Həmin ilin noyabrında isə Azərbaycanda ilk dəfə olaraq Pirallahı Sənaye Parkında "Həyat Farm" əczaçılıq mərkəzinin bünövrəsinin qoyulması mərasimi keçirildi. Onun həyata keçirilməsində iki ölkənin müvafiq kampaniyaları iştirak etdilər. Bu zavod 2020-ci ildə işə salınacaqdır. İlkin mərhələdə zavodda 80 addan çox əczaçılıq məhsullarının istehsalı nəzərdə tutulub. İki ölkənin energetika sistemlərinin paralel fəaliyyəti haqqında 2013-cü ildə hökumətlərarası saziş imzalanmışdır.

2017-ci ilin oktyabrında Azərbaycan-Rusiya dövlət sərhəddinin Samur keçid məntəqəsi rayonunda Samur çayı üzərində körpünün əsasının qoyulması münasibətilə təntənəli mərasim keçirildi.

Rusiya ilə Azərbaycan arasında hərbi və hərbi-texniki sahədə də əməkdaşlıq inkişaf edir. Bu gün Rusiya kimi güclü hərbi potensiala malik bir dövlət ilə əməkdaşlığın özü Azərbaycan üçün mühüm hərbi-strateji əhəmiyyət kəsb edir. İki ölkə arasında hərbi-texniki əməkdaşlığın həcmi 4 milyard dollarla ölçülür və bu göstərici tədricən artmaqdadır. 2003-cü ilin fevralın 27-də Bakıda iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq haqqında saziş imzalanıb. Azərbaycanın Rusiyadan aldığı silahlar əsasən müdafiə xarakterlidir və heç bir üçüncü ölkəyə qarşı yönəldilməmişdir.

Rusiya ilə Azərbaycan arasında mədəniyyət və təhsil sahəsində əlaqələr də artan xətt üzrə inkişaf edir. Hazırda Rusiyanın ali məktəblərində 5755 Azərbaycan vətəndaşı, o cümlədən 1420 nəfər Rusiya Federasiyasının federal büdcəsi hesabına təhsil alır. 2008-ci il fevralın 27-də Bakıda M.V.Lomonosov adına MDU-nun filialı açılıb və fəaliyyətinin ikinci ilində burada təhsil alan tələbələrin sayı 200-ə yaxındır. Ümumiyyətlə, Rusiya elm və ali təhsil sistemi Azərbaycan üçün yad sistem deyil. Bu sahədə qarşılıqlı əlaqələr xeyli inkişaf etmişdir.

Qafqazda ümumi vəziyyət və beynəlxalq terrorçuluğa qarşı birgə mübarizə ilə bağlı məsələlər nəzərə alınmaqla, sərhədyanı əməkdaşlıq ikitərəfli əlaqələrin vacib tərkib hissəsi olaraq qalır. Azərbaycanla dövlət sərhədinin delimitasiyası istiqamətində işlər davam etdirilir.

Bütün yuxarıda deyilənlər belə bir fikrə gəlməyə əsas verir ki, Azərbaycan-Rusiya münasibətləri möhkəm özül üzərində qurulmuşdur. Bu münasibətlər qarşılıqlı maraqlara və faydaya əsaslanır, üçüncü ölkələrə qarşı yönəldilməyib, əksinə, region ölkələrinin iqtisadi inkişafına, beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsinə istiqamətlənib. Bu münasibətlərin daha da güclənməsi həm Avrasiyada, həm Cənubi Qafqazda, eyni zamanda, Orta Şərqdə sülh və təhlükəsizlik prosesinin inkişafına müsbət təsir göstərir.

**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun dosenti.**

# Azərbaycan Prezidenti Saatlıdakı kütləvi zəhərlənməni xüsusi nəzarətə götürüb

**İyunun 10-da saat 19:30 radələrində Saatlı rayonunun Simadakənd kəndi ərazisində fermer Lətif Xəlilova məxsus torpaq sahəsində əkilmiş pambıq tarlasında işləyən 24 nəfər Sabirabad rayon sakinləri "Kimyəvi dərman zəhərlənməsi" diaqnozu ilə Saatlı Mərkəzi Rayon Xəstəxanasına daxil olub.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, baş vermiş hadisə ilə bağlı dərhal Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müvafiq məlumat verilib.

Zəhərlənmiş şəxslərin müalicəsi dövlətimizin başçısının tapşırığına əsasən nəzarətə götürülüb, zəhərlənmənin səbəblərinin araşdırılması məqsədilə Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşlarından ibarət komissiya rayona ezam edilib.

Faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 249.2-ci (bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma, ağır nəticələrə səbəb olduqda) və 314.2-ci (səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb, bitki ziyanvericilərinə qarşı tətbiq edilmiş kimyəvi maddələrin nümunələri tarladan və anbardan müvafiq qaydada maddi sübut kimi götürülüb, iş üzrə məhkəmə-tibbi, məhkəmə-kimyəvi və digər ekspertizalar təyin olunub.

Zəhərlənən 24 nəfərdən ikisinə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Dörd nəfərin vəziyyəti ağır olduğundan təcili Bakı şəhərinə gətirilərək Toksikologiya Mərkəzinə yerləşdirilib. Hazırda xəstələrin vəziyyəti qənaətbəxşdir.

Cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir, gələcəkdə insanların həyat və sağlamlıqlına təhlükə yarada biləcək bu qəbildən hadisələrin təkrarlanmaması məqsədilə müvafiq icra strukturlarına konkret tapşırıqlar verilib.

Görülmüş işlər barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

**AZƏRTAC**

# İdarəçilik daha sistemli və effektiv aparılacaq

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 mart 2016-cı il tarixli müvafiq Fərmanına əsasən yaradılan, mükəmməl layihə olan torpaqların elektron kadastr uçotu bu sahədə idarəçiliyin daha sistemli və effektiv aparılacağına imkan verir. Belə məqsədlə həyata keçirilən işlərin miqyası genişləndirilir.**



Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun keçirilən vətəndaş qəbulunda Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov səsləndirib. Qeyd edilməlidir ki, komitə sədri iyun ayının 9-da vətəndaşların müraciətləri və təklifləri ilə yerindəcə tanış olmaq üçün İsmayıllı rayonu Heydər Əliyev Mərkəzində bölgə sakinlərini qəbul edib. Komitənin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda İsmayıllı, Qəbələ, Oğuz rayonlarından olan sakinlərin müraciətləri dinlənilib.

Komitə sədri vətəndaşların diqqətinə çatdırıb ki, torpaqların mükəmməl kadastr uçotunun formalaşdırılması, torpaqların elmi əsaslarla idarəedilməsinə, ölkənin torpaq balansının dəqiqləşdirilməsinə, vahid torpaq bazasının yaradılmasına zəmin yaradır.

Müraciətlər əsasən torpaq sahələrinin sərhədlərinin dəqiqləşdirilməsi, vaxtı ilə verilmiş pay torpaqları ilə bağlı faktiki və sənəd uyğunsuzluqlarının aradan qaldırılması, o cümlədən torpaqların təyinatına uyğun istifadəsi, kateqoriyasının dəyişdirilməsi prosedurları ilə əlaqədar olub. Daşınmaz əmlakın qeydiyyatı, özəlləşdirilmə sahəsinə də aid müraciətlər ünvanlanıb.

Bildirilib ki, bu günədək artıq 18 rayonda torpaqların elektron kadastr uçot işləri yekunlaşıb. Artıq 6 rayonda (Salyan, Ağsu, Beyləqan, Göygöl, Samux, Balakən) kadastr işlərinin praktiki istifadəsinə başlanılıb. Bununla bələdiyyələr, torpaqların ümumi həcmindəki payını müəyyənləşdirə bilirlər. Eyni zamanda hansı ərazilərin dövlətə və ya xüsusi mülkiyyətə aid olduğu dəqiqləşir. Həmçinin vətəndaşlar alacağı torpaqda hansı növ fermer təsərrüfatı ilə məşğul olacağını planlaşdıra bilirlər. Belə ki, torpaqların münbitlik dərəcəsi ilə bağlı məlumat bazası formalaşır.

O da vurğulanıb ki, torpaq idarəçiliyində dövlət nəzarətinin həyata keçirilməsi, torpaqların kəmiyyət və keyfiyyət göstəricilərində baş vermiş dəyişikliklərin müəyyən edilməsi məqsədilə qurulan Peyk nəzarət sistemi bu işlərin effektivliyini artıracaq.

Qəbul zamanı vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir çoxu yerində həllini tapıb. Hər bir vətəndaş müraciətinə diqqətlə yanaşan komitə sədri Kərəm Həsənov müraciətlərin dəqiqliklə araşdırılması və qaldırılan məsələlərin həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib.

Qəbul çərçivəsində komitə sədri yerli qurumlara, aidiyyəti idarələrə fəaliyyət sahələri üzrə göstərilən xidmətlərdə maksimum məmnunluğun, çevikliyin, əlçatanlığın, şəffaflığın təmin olunması məqsədilə bütün zəruri tədbirlərin görülməsi barədə tapşırıqlarını verib.

**Nəriman CAVADOV,**
**"Respublika".**

*17 iyun Tibb işçilərinin peşə bayramıdır*

# Onun arzusu, istəyi insanların sağlamlığıdır



**Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən, onun layiqli davamçısı İlham Əliyevin Azərbaycan xalqına göstərdiyi sonsuz qayğı və diqqətdən sonra mərkəzi şəhərlərdə olduğu kimi, bölgələrdə də səhiyyəmizin maddi-texniki bazası yüksəlmiş, etibarlı kadr potensialı yaranmış, yaxşı həkimlər yetişmişdir. Onlardan biri də biliyi, bacarığı, professionallığı, özünə və ətrafındakılara qarşı tələbkarlığı, bununla yanaşı, qayğıkeşliyi və səmimiliyi ilə seçilən Şəki RMX-nın endokrinologiya şöbəsinin müdiri, tibb elmləri doktoru, Əməkdar həkim Tofiq Mehdiyevdir.**

Tofiq Vahid oğlu Mehdiyev Şəkinin Qoxmuq kəndində, ziyalı ailəsində anadan olmuşdur.

Atası - Vahid Zülfüqar oğlu Mehdiyev uzun müddət partiya, sovet, təsərrüfat orqanlarında çalışmış, bir sıra orden və medallarla, o cümlədən "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Bunu ona görə xatırlayırıq ki, 1989-cu ildə o, qaçqın problemlərinə kömək etmək məqsədi ilə (Şəki şəhərinin mərkəzində) yaşadığı mənzili hökumətə təhvil vermiş, 1999-cu ildə vəfat etmişdir. Yaşadığı küçəyə indi onun adı verilmişdir.

T.Mehdiyev 1970-ci ildə Şəki şəhər 10 saylı orta məktəbi "əla" qiymətlə bitirmiş, elə həmin il də Azərbaycan Tibb İnstitutuna daxil olmuş, 1976-cı ildə institutun müalicə-profilaktika fakültəsini bitirərək, Bakı şəhər 4 saylı kliniki xəstəxanada "Terapiya" ixtisası üzrə internatura kursu keçmişdir.

O, 1977-1980-ci illərdə Bakı şəhər 12 saylı xəstəxanada həkim-terapevt işləməklə yanaşı, ATU-nun yoluxucu xəstəliklər kafedrasında müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Elmi-tədqiqat işlərinə xüsusi marağının olmasına baxmayaraq, ailə şəraiti ilə əlaqədar elmi fəaliyyətini dayandırmış və Şəkiyə qayıdaraq Mərkəzi Rayon Xəstəxanasında əvvəlcə həkim-terapevt, Şəki Rayonlararası Endokrinoloji Dispanserində həkim-endokrinoloq, sonra isə Endokrinoloji Dispanserin baş həkimi vəzifələrində çalışmışdır. Hazırda da o, Şəki RMX-nın Endokrinologiya şöbəsinə rəhbərlik edir.

T.Mehdiyev 1995-ci ildə "Şəkərli diabetli xəstələrdə trofiki xora və qanqrenanın kompleks müalicəsi" mövzusunda namizədlik, 2015-ci ildə "Şəkərli diabet fonunda inkişaf edən erektil disfunksiyanın ikincili profilaktikası və müalicəsinin müasir prinsipləri" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. 2014-cü ildə Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Sertifikasiya Komissiyasında "Endokrinologiya" ixtisası üzrə imtahan verərək maksimal qiymət - 100 bal toplamışdır.

O, bir çox elmi konfranslarda məruzələrlə çıxış etmiş, 7 monoqrafiya, 4 metodik tövsiyə, çoxlu elmi məqalə yazmışdır. 20-dən artıq məqaləsi müxtəlif xarici ölkələrdə (Amerika, Almaniya, İngiltərə, Türkiyə, Rusiya və s.) nəşr olunmuşdur. Onlardan 21-i son 5 il ərzində çap edilmiş, təkcə 2017-ci ildə 2 elmi məqaləsi İngiltərədə və Rusiyada nəşr olunmuş, bir dərs vəsaiti işıq üzü görmüşdür.

Azərbaycanda nəşr olunan "Sağlamlıq", "Metabolizm" jurnallarının üzvü olmuş, "Urologiya" jurnalının hazırda redaksiya heyətinin üzvüdür. 2018-ci ildən Rusiya Federasiyasında nəşr olunan "Курортная медицина" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir. 1992-1993-cü illərdə Səhiyyə Nazirliyinin yeganə elmi-təcrübi jurnalı olan "Azərbaycan Tibb jurnalının" nəşrinin davam etdirilməsi üçün bir neçə elm idarələri ilə bərabər o da, bu jurnalın fəaliyyətinə maddi və mənəvi dəstək vermişdir. Bu da onun elmə, tərəqqiyə həvəsi, humanist duyğularından xəbər verir.

O, 1995-1996-cı ildə Şəki-Zaqatala, bölgəsində yod çatışmazlığı, xüsusilə endemik urun kütləvi halda yayılması ilə əlaqədar müvafiq təşkilatlar qarşısında məsələ qaldırmış və xarici humanitar təşkilatları bu işə cəlb edərək, 1977-ci ildə Azərbaycan Tibb jurnalında "Endemik ur və yodlaşdırma proqramı" adlı elmi məqalə dərc etdirmişdir. Yodlaşdırma proqramı ilə əlaqədar o Səhiyyə Nazirliyinin 1997-ci ilin mart ayında keçirilən kollegiya iclasında nazir müavini Zenfira Hüseynova tərəfindən işdən azad olunması ilə hədələnmişdir. Lakin zaman Tofiq Mehdiyevin haqlı olmasını təsdiq edir.

Təcrübəli həkim məqalədə xörək duzunun yodlaşdırılması probleminin dövlət səviyyəsində həlli məsələsini qaldıraraq 1999-cu ildə "Endemik ur və yod problemi" adlı monoqrafiya nəşr etdirmiş, nəhayət, 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən bu barədə qanun qəbul olunmuşdur.

Bundan sonra o, şəkərli diabetli xəstələrin təlimatlandırılması üçün "Şəkərli diabet məktəbinin" yaradılması ilə əlaqədar Səhiyyə Nazirliyi qarşısında məsələ qaldırmış, 1996-cı ildə Səhiyyə Nazirliyinin Elmi Şurasının qərarı ilə "Şəkərli diabet məktəbi" adlı monoqrafiya nəşr etdirmiş, şəkərli diabetli xəstələrin təlimatlandırılması ilə əlaqədar 1996-cı ildə "Sent-Vinset deklarasiyası" üzrə Səhiyyə Nazirliyində yaradılmış komissiyasının üzvü seçilmişdir.

Sonrakı illərdə də bu sahədə geniş elmi-tədqiqat işləri aparan alim-həkim 2017-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Səhiyyə Nazirliyinin baş endokrinoloqu, professor Rafiq Məmmədhəsənovla birgə "Şəkərli diabet" adlı dərs vəsaiti hazırlamışdır ki, bu da tələbələr, həkim endokrinoloqlar, eləcə də diabetin müalicəsi ilə məşğul olan və diabetli xəstələrin təlimatlandırılma kursunu aparan həkimlər üçün dəyərli vəsait hesab olunur. 2018-ci ildə "Şəkərli diabetdə düzgün qidalanma" adlı dərs vəsaiti tərtib olunmuş və hazırda nəşrə hazırlanır.

İşlədiyi müddətdə o, çox sayda şəkərli diabetli xəstələri ağır vəziyyətlərdən və koma hallarından çıxarmış, ətrafların amputasiyalarının qarşısını alaraq, onların ömürlərinin uzadılmasına səbəbkar olmuşdur.

Öz ixtisasımı daim artırmaq, yenilikləri öyrənmək və onu həyata tətbiq etmək alim-həkim üçün daim daxili tələbat olaraq qalır. Hesab edirik ki, onun keçdiyi mənalı həyat yolu gənc tibb işçiləri, xüsusilə də rayonlarda işləməkdən boyun qaçıran həkimlər üçün örnək ola bilər.

Alim-həkimin əməyinə layiqincə dəyər verilmiş və o, 1990-cı ildə "SSRİ Səhiyyə Əlaçısı" döş nişanı, 2000-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Azərbaycan Respublikasının Əməkdar həkimi" fəxri adı ilə təltif olunmuşdur.

Həkimin həyat yoldaşı Yasəmən xanım Mehdiyeva Şəki RMX-nın Qadın məsləhətxanasında terapevtidir. 3 övladları var.

Mərkəzdən uzaqda, əyalətdə yaşayan bir həkim kimi onun apardığı elmi-tədqiqat işləri, ağır xəstələrə yüksək ixtisaslaşmış tibbi xidmət göstərməyi, eləcə də qonşu rayonlardan, Bakı və Gəncə şəhərlərindən onun adına xəstələrin gəlməsi, hətta müəyyən vaxtlarda Bakıdakı xəstəxanalarda müalicə olunan xəstələrə baxıb məsləhət verməyə dəvət olunması tibb işçilərində qürur hissi doğurur.

Tofiq həkim haqqında bütün insanlar onun çox savadlı və bacarıqlı həkim olmasından ağız dolusu danışırlar. Səhiyyə Nazirliyinə onun haqqında çoxsaylı razılıq məktubları daxil olur. Mətbuat səhifələrində onun haqqında şerlər, oçerklər yazılmış, hətta Şahdağlı tərəfindən "Tofiq həkim" adlı mahnı yazılmışdır.

Biz Tofiq həkimdən həm elmi işlərindən, həm də ağır xəstələrlə məşğul olması barəsində danışmasını xahiş etdikdə o, öz fikirlərini lakonik formada belə ifadə etdi: "... Mən öz vətəndaşlıq missiyasını yerinə yetirməyə borclu olan sadə bir insanam və sadə bir insanın görməli olduğu bir işi görmüşəm, yəni mənim xidmətim, belə hesab edirəm ki, yalnız adi vətəndaşlıq borcunun yerinə yetirilməsi kimi ölçülüb qiymətləndirilə bilər..."

"... Çalışdığım müddətdə iki hiss, iki duyğu məni rahat buraxmayıb: biri ruhu həmişə mənimlə olan atamın adına layiq valideyn olmaq, həkim olmaq, o biri də neçə-neçə ananın, atanın, ağsaqqal-ağbirçəyin, bacı-qardaşın sağlamlığına xidmət etmək... və burada işlədiyim müddətdə bütün varlığımla həm də ona çalışıram ki, heç olmasa həmvətənlərim dünyadan nakam köçməsin. Mənim çalışdığım da budur, arzum da, istəyim də!..."

Bu fikirləri yaşadığı mənalı və şərəfli ömrün, gördüyü saysız-hesabsız dəyərli işlərin, zəngin fəaliyyətin müqabilində Tofiq Mehdiyevin çox təvazökarlıqla dilə gətirdiyi bir qədər nisgil qarışıq etirafı kimi də qiymətləndirmək olar, 65 illik ömrün zirvəsindən bir görüntü... kimi də.

Amma burada böyük bir reallıq odur ki, Tofiq Mehdiyev şərəfli bir yol keçmiş və onu tanıyan bütün insanların hüsn-rəğbətini qazanmışdır. Tofiq həkimi qarşıda hələ neçə-neçə uğurlar gözləyir.

Arzu, istəyi, həyat amalı insanlara sağlamlıq bəxş etmək olan istedadlı həkimə xoş arzularımızı bildirir və daha böyük uğurlar arzulayırıq.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Diqqət və qayğıya əməli işlə cavab verilir



**Respublikanın ikinci şəhəri olan Şeyx Nizami yurdu Gəncədə bütün səhiyyə müəssisələrində yenilik, səliqə-sahman, yüksək səviyyəli xidmət özünü büruzə verir. Belə yüksək xidmət göstərən şəhərin tibb müəssisələrindən olan Gəncə Şəhər Kardioloji Xəstəxanasının fəaliyyətində bunu əyani görmək mümkündür. Uzun müddət xəstəxanaya rəhbərlik edən baş həkim Fəxrəddin Namazovdan vətəndaşlara tibb xidmətinin vəziyyəti haqqında məlumat verməyini xahiş etdik. Məlumat üçün bildirək ki, Fəxrəddin həkim Azərbaycan Tibb İnstitutunu müvəffəqiyyətlə bitirdikdən sonra Moskva Ümumittifaq Kardioloji Mərkəzdə həkim-ordinator vəzifəsində çalışmış, yüksək təcrübə topladıqdan sonra bir kardioloq kimi öz şəhərinin vətəndaşlarına xidmət etmək üçün Vətənə qayıtmışdır. Məhz çalışdığı xəstəxananın tikintisində iştirak etmiş və sonradan baş həkim təyin olunmuşdur. İşlədiyi müddətdə hər bir xəstəni özününkü hesab edərək, var qüvvəsini, bilik və bacarığını əsirgəməmişdir.**

Müsahibimiz ilk öncə peşə bayramı münasibəti ilə bütün səhiyyə işçilərini təbrik edərək qeyd etdi ki, Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyevin 4 iyul 2001-ci il tarixli sərəncamı ilə 17 iyun Səhiyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Öz xalqının rifahının, sosial müdafiəsinin yüksəldilməsi və sağlamlığının qorunması ümummilli liderin bütün fəaliyyətinin əsas məqsədini təşkil etmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu inkişaf strategiyası yüksək səviyyədə davam etdirilir. Yeni tibb müəssisələrinin inşa edilməsi, bütün mövcud xəstəxana və poliklinikaların yenidən qurulması və modernləşdirilməsi, avadanlıqlarla təchizatı bugünkü səhiyyəmizin yüksəlişinin bariz nümunəsidir.

Məhz bu baxımdan hər bir həkim bu diqqət və qayğıya görə öz fədakar əməli ilə cavab verməyi, ölkə əhalisinin sağlamlığının qorunması və vaxtında xəstəliklərin qarşısının alınmasını özünün ən ümdə vəzifəsi hesab edir. Ürək-damar xəstəliklərinin tibbi və sosial əhəmiyyəti getdikcə artmaqdadır, çünki bu xəstəliklər, onlara qarşı aparılan müasir müalicə-profilaktik tədbirlərə baxmayaraq ilbəil çoxalır. Müasir təbabət, o cümlədən kardiologiya daim inkişaf edir, yeni patogenetik məlumat əldə edir və təzə müalicə üsullarına yiyələnir. Bu gün artıq nəzəri və praktiki yenilikləri tətbiq etməklə ürək-damar sistemi xəstəliklərinin müalicə və müayinəsinin yüksək səviyyədə həllinə nail olunur.

Biz həkimlərin bir amalı var, Azərbaycan vətəndaşlarının sağlamlığının təmin olunması üçün fədakarcasına çalışmaq, diqqət, nəvaziş və qayğı göstərmək, əlimizdən gələni əsirgəməmək. Həkimlərimiz öz üzərlərinə düşən vəzifəni layiqincə yetirdikləri üçün xəstələr tərəfindən ümid ünvanına çevrilmişlər, çünki onların hər biri öz peşələrinə qəlbən bağlıdırlar.

Sonda vətəndaşların sağlamlığının ölkə başçısı cənab İlham Əliyevin daim diqqətində olduğunu vurğuluyan baş həkim bunun müqabilində əməli işləri ilə cavab verdiklərini, var qüvvələri ilə çalışdıqlarını bildirdi. Biz də öz növbəmizdə Fəxrəddin həkimi və bütün həmkarlarını peşə bayramı münasibətilə təbrik edib uğurlar arzuladıq.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*QUNNAR PANKE:*

# "Nar" bazarda rəqabətə davamlılığını və mövqeyini daha da gücləndirəcək

**–İlk öncə, Azərbaycanın telekommunikasiya bazarı haqqında düşüncələrinizi öyrənmək istərdim. Hansı dəyişiklikləri qeyd edərdiniz və bu dəyişiklikləri hansı amillər şərtləndirib?**

–Azərbaycanın telekommunikasiya bazarındakı trendlər dünya üzrə müşahidə etdiklərimizlə demək olar ki, eynidir. Burada telekom bazarının inkişafının sürətləndirilməsinə dəstək olaraq müəyyən işlər görməyimiz məni çox fərəhləndirir.

Birinci növbədə, əlbəttə, mobil internet xidmətlərinə olan tələbatın qarşılanması nöqteyi-nəzərdən bazar üzrə nəzərəçarpacaq dərəcədə artım nümayiş etdirməkdəyik. Sizinlə internet istifadəsi ilə bağlı əhəmiyyətli artıma dair bəzi rəqəmləri bölüşüm. 2018-ci ilin birinci rübündə "Nar" şəbəkəsində mobil internetdən istifadədə 86% artım müşahidə etmişik. Hazırda bu artım müştərilərin rabitə ehtiyacları baxımından qeyd edə biləcəyimiz ən önəmli artımdır və biz bunu əsasən zəngin məhsul çeşidimizin hesabına edirik.

İkinci məsələ, yerli mobil operatorların yeni texnologiyalara sərmayə etmələri mütləqdir. Hazırda biz 4G texnologiyasına sərmayə qoyulması mərhələsindəyik. Üçüncü nəsil (3G) texnologiyanı dördüncü nəsillə (4G) əvəz edirik, bu, bütün sahələr üçün uyğundur, lakin, eyni zamanda, bu bir sınaqdır, çünki bütün operatorlar yeni texnologiyalara ciddi investisiya yatırmalıdırlar.

Üçüncü qeyd etmək istədiyim məqam isə odur ki, Azərbaycanda mobil operatorlar arasında çox güclü rəqabət mövcuddur, çünki operatorlar nisbətən kiçik həcmli bazarda rəqabət aparır. Bazarda 4 operator fəaliyyət göstərir. Operatorlar arasında güclü rəqabət bizi - hər dörd operatoru daha çox effektiv fəaliyyət göstərməyə sövq edir. Qiymətləri eyni səviyyədə saxlamaq və hətta daha əlverişli etmək üçün xərclərimizi azaldacaq yeni biznes modellərinin davamlı axtarışındayıq.

**–Müştərilərin tələbləri haqqında nə deyərdiniz? Onlar dəyişibmi, bu, bazarda və sizin işinizdə əksini necə tapıb?**

–Düşünürəm ki, mobil internetə daha çox meyil edən müştərilərin 24/7 rejimində onlayn olmaq kimi aydın bir gözləntiləri var. Bu, daha çox internet istifadəsi, hətta daha sürətli internet tələb edir və bütün rabitə bazarı daha çox həcm və sürətə malik internet məhsullarına üz tutur. Bu, birinci məqamdır.

İkinci vacib məqam isə odur ki, internet dünyasına üz tutmuş bir çox müştərilər orada hər şeyin pulsuz olduğunu düşünürlər. Ona görə də bu məqam, eyni zamanda, oyunçular arasında rəqabət təzyiqini xeyli artırır, başqa sözlə, onlar, bazara ən sərfəli təkliflərlə çıxmağa can atırlar, bu, həm də bizə olan bir çağırışdır, sınaqdır. Bu, bizi dilemma qarşısında qoyur:

ona görə də, bir tərəfdən yeni texnologiyalara və daha yüksək sürətli internetə böyük həcmdə sərmayə qoyulması, digər tərəfdən isə qiymət səviyyəsinin saxlanılması zərurəti labüddür.

Daha bir mühüm məqam, müştərilərin məhsulların hazırlanması prosesinə daha çox cəlb edilmələri ilə bağlı gözləntiləridir. Yeni məhsul təklifləri irəli sürdüyümüz zaman həmişə tam olaraq müştəri ehtiyaclarını qarşılamağa çalışdığımız üçün çox qürurluyuq. Rominqin də daxil olduğu səsli danışıqlar və mobil internetdən ibarət paketlə bağlı bir misal qeyd etmək istərdim. "Full" paketi kimi paketlər olduqca müasir texnologiyalara əsaslanır və biz bu kimi paketlərlə bağlı müştəri gözləntilərinin nə olduğunu araşdırmaqla onları son dərəcə cəlbedici etməyə çalışmışıq.

Burada iki element var: birincisi, müştərilərə daha çox təhlükəsizlik verdiyi üçün dəqiqələr və meqabaytlardan ibarət paketlərin əldə edilməsi cəlbedicidir. Lakin müştəri pulsuz dəqiqələri və aylıq ödənişlə əldə etdiyi paketləri itirmək niyyətində deyil və paketlərdən istifadə etmək üçün daha çox vaxt olmasını istəyir. Dəqiqə və meqabaytların üç ay ərzində qüvvədə qalmasını təmin edərək bazarda çox iddialı bir təkliflə çıxış etdik. Beləliklə, müştəri meqabaytları və dəqiqələrini itirmir.

Müştərilərin daha çox çeviklik ilə bağlı gözləntiləri isə üçüncü vacib məqamdır. Müəyyən həcmdə meqabayt və dəqiqələrə malik olmaq gözəldir, lakin müştəri meqabaytları dəqiqələrə və ya əksinə dəyişmə imkanını yüksək qiymətləndirir. Bu səbəbdən, bazarda ilk dəfə "dəyişmə" funksiyasını təqdim etdik.

Bu, "Nar"ı bazarda fərqləndirən amildir. Biz bütün trendləri dərk edirik, amma bunu ən müştəri yönümlü qaydada edirik.

**–Cənab Panke, bizə məlumdur ki, siz Avropa, Latın Amerikası və Yaxın Şərq ölkələrinin telekommunikasiya bazarlarında 25 illik zəngin bir təcrübəyə maliksiniz. Adlarını çəkdiyim bölgələrdəki hansı innovativ təcrübəni Azərbaycanda da tətbiq etmək istərdiniz?**

–Bu sahənin inkişaf meyarlarını daha yaxşı anlamaq və ümumi trendləri izləmək çox vacibdir. Xüsusi vurğulamaq istədiyim üç təcrübəmi qeyd edəcəyəm.

Birinci məsələ sürətli texnoloji inkişafdır. Məsələn, telefon təminatçıları və telekom sənayesi təchizatçıları 4G texnologiyasının geniş yayılması prosesini həyata keçirir. Bu texnologiya müştərilərin daha yaxşı mobil internet təcrübəsi tələblərinə cavab verdiyi halda, siz bu prosesi mümkün olduğu qədər sürətləndirməlisiniz. Siz sərmayə qoyuluşu prosesini optimallaşdırmağa və 3G-dən 4G-yə keçid kimi bir texnologiyadan digərinə keçmənin münasib yollarını axtarmağa çalışmaqla kifayətlənməməlisiniz. Bu kimi yeni texnologiyaların inkişafı üçün nə qədər tez hərəkət etsəniz müştərilərin müsbət rəyləri, eləcə də gəlirlərinizin artımı da bir o qədər çox olar. Bir təchizatçı kimi yeni texnologiya nümunələrini qəbul etməli, onları tam əhatə etməli və bu təcrübələrin tətbiq edilməsində lider olmalısınız.

İkincisi odur ki, mən uzunmüddətli düşüncə və strategiya tərəfdarıyam. Zənnimcə, bu, 20 ildən artıq olan fəaliyyətim müddətində sahib olduğum ən vacib təcrübələrdən biridir. Bir rübdən digərinə keçməyə çalışmaq doğru yanaşma deyil. Müştərilər bunu bəyənməyəcək, çünki bu qısamüddətli düşüncə tərzidir. Müştərilər sizin doğrudan da onların qayğısına qaldığınızı başa düşməlidirlər, yəni bir təchizatçı kimi onların daha çox gözlədikləri sahələrə sərmayə qoyduğunuzu hiss etməlidirlər. Müştəri və şəbəkə təcrübəsində də uzunmüddətli biznes planına sahib olmaq lazımdır, yəni qısa müddət ərzində maksimum gəlir əldə etməyə çalışmaqdansa, sərmayə yatırmaq daha məqsədəuyğundur.

Üçüncü məqam isə mobil rabitə biznesində hər şeyin paket məhsul təklifi ətrafında cərəyan etməsidir. Bu baxımdan, həqiqətən də "Qutu" məhsulumuzla Azərbaycanda ön sıralardayıq. Bu, mobil rabitənin sabit internet və TV xidmətləri ilə birləşdirildiyi ilk məhsuldur. Belə təklifə müştəri tələbatı var, çünki bu, bir tərəfdən prosesi sadələşdirir, digər tərəfdən isə qiymət məsələsində müştəriyə fayda gətirir. Bunlar bizim üç əsas elementlərdir.

**–Bazarda operatorlar arasında güclü rəqabət barədə söhbət açdınız, bununla bağlı sual verəcəyəm. Sizcə, mobil rabitə bazarının inkişafına manеələr törədən məqamlar var? Əgər varsa, hansılardır?**

–Azərbaycanda operatorlar arasında çox güclü rəqabət mövcuddur. Bir tərəfdən, qeyd etdiyim kimi bazarda dörd operator fəaliyyət göstərir. Buna görə də bu bizim üçün bir sınaq və çağırışdır. Müştərilər mobil internetdən istifadə baxımından onlara ən yaxşı təcrübə vəd edən yeni texnologiyalara sərmayə yatırılmasını istəyirlər. Onlar, səsli xidmətlərdə də şəbəkə keyfiyyətinin yüksək olmasını arzulayırlar. Digər tərəfdən, sərfəli qiymətlər təklif etmək və eyni zamanda, müştərilərin xidmətlərlə bağlı tələblərinə cavab vermək lazımdır. Bu vəziyyət Azərbaycan da daxil olmaqla bütün ölkələr üçün kifayət qədər xarakterikdir.

Bu baxımdan, biz bir neçə vacib məqamı nəzərə almalıyıq. Məhsullara gəlincə, paket təkliflərimizi bazara çıxarmalıyıq. Bu, bazarın vacib tələbidir və biz hamımız bu istiqamətdə hərəkət edirik. İnanıram ki, bazara giriş mərhələsində olan "Qutu" məhsulumuz bu bazarın gələcəyidir. Müştərilərin paket şəklində olan məhsullara ehtiyacı var. Məsələ burasındadır ki, sabit internet xidmətləri bazarı çox şaxələnmiş şəkildədir, amma bu sahə Azərbaycan bazarının gələcəyidir.

Növbəti element smartfon məsələsidir. Bazarda mobil internet üçün tələbat əsasən smartfon penetrasiyasından, xüsusən də son nəsil 4G dəstəkləyən cihazlarının yayılmasından asılıdır.

Əlavə olaraq deyim ki, bu həqiqətən də düşündürücüdür, çünki smartfonlar kifayət qədər bahadır. Sonradan ödəniş praktikası və bu minvalla müştəriyə mobil rabitə cihazını daha yaxşı şərtlərlə əldə etmə imkanını verməklə bu elementi inkişaf etdirməyə çalışırıq. Bu, inkişaf etdirilməsi labüd olan bir sahədir.

Sonuncu, həmçinin böyük əhəmiyyətə malik məsələ bizim daha çox effektiv fəaliyyət göstərməyimizə kömək edəcək yeni biznes modellərinin axtarışıdır ki, bunu müştərilərimizin qiymətlərlə bağlı istəklərini nəzərə almaqla edirik. Fəxrlə deyə bilərəm ki, "Nar" müəyyən xidmətlərinin kənardan tədarükü (outsourcing) sahəsində ön sıradadır. Kənardan tədarük həqiqətən də proseslərin optimallaşdırılması baxımından əhəmiyyətli addımlardan biridir.

**–Mümkünsə, kənardan tədarük layihəsi barədə daha ətraflı məlumat verərdiniz.**

–Kənardan tədarük və ya autsorsinq prosesləri optimallaşdırmağa və yeni texnologiyaları daha sürətlə inkişaf etdirməyə yardım edir ki, belə olan halda qazanan müştəridir. Yeni xidmətlərin sürətli inkişafı bazarda innovasiyalara kömək edir.

Bizim "Bakcell" ilə birgə başladığımız kənardan tədarük layihələrinin iki şirkətin birləşməsi anlamına gəldiyi *(gülür)* barədə bazarda müəyyən şayiələr də eşitmişik ki, bu da təbii ki, tamamilə yanlış fikirdir. Kənardan tədarük qətiyyən şirkətlərin birləşməsi demək deyil. Bu, texnologiya və İT kimi sahələrdə qüvvələrin yönəldilməsi və tədarükü deməkdir. "Nar" və "Bakcell" bazarda bir-birləri ilə çox güclü rəqabət aparan tam müstəqil şirkətlərdir. Bizim şirkətimizin öz komandası, strategiyası, satış şəbəkəsi, məhsul inkişaf mexanizmi, qiymət siyasəti, innovasiya və brendinq fəlsəfəsi, differensiasiya yolu var.

Kənardan tədarük operatorun rəqabətə davamlılığını gücləndirir, bizim təcrübə bunun bariz nümunəsidir. Xüsusilə bizim şirkətin timsalında görəcəksiniz ki, "Nar"ın bazarda rəqabətə davamlılığı və mövqeyi daha da güclənəcək. Bu səbəbdən, kənardan tədarük modelləri bütün sahənin daha rəqabətədavamlı olmasına dəstək ola bilər.

Kənardan tədarük modelləri bizim sahədə ən müasir tendensiyadır. Siz bunu bir çox ölkələrdə - Böyük Britaniya, Rusiya, Polşa və başqa dövlətlərdə müşahidə edə bilərsiniz. Məsələn, 2012-ci ildə "Vodafone UK" və "Telefonica" şəbəkədən birgə istifadə və nəzarət funksiyalarını bölüşmək qərarına gəldilər. Bənzər təcrübə Rusiyada da yaşanıb, iki aparıcı mobil operator - MTS və "VimpelCom" ölkənin bir neçə bölgəsini əhatə edən 4G şəbəkəsini bölüşmək barədə razılığa gəliblər. Bu kimi model Azərbaycanın bank sektorunda da uğurla tətbiq edilib. Bəzi yerli banklar birgə yaratdıqları vahid kart əməliyyat mərkəzinin xidmətlərindən istifadə edirlər, lakin bazar mühitinin rəqabətədavamlılığı da təmin edilir.

**–"Nar" digər mobil operatorlardan nə ilə fərqlənir? Onun əsas üstünlüyü nədir? "Nar"ın hədəflədiyi müştəri kateqoriyası hansıdır?**

–Mobil rabitə bazarında 4 oyunçu var və mən şirkətimizin hücum mövqeyində olduğu qənaətindəyəm. Hər zaman ən yaxşı təkliflə çıxış etməyə çalışırıq, eyni zamanda, xüsusilə səsli danışıq xidmətində, ən azından eyni, hətta daha yaxşı keyfiyyəti təmin edirik. Bölgələrdəki müştərilərimiz daha çox səsli danışığa hələ də meyillidirlər, çünki regionlarda smartfon penetrasiyası nisbətən aşağıdır. Bu səbəbdən, ən yaxşı zəngli danışıq təklifini irəli sürmüşük, inanırıq ki, "Yerlim" birmənalı olaraq bölgələrdə təqdim edilən ən yaxşı səsli danışıq təklifidir. Bu, bazara necə təsir göstərdiyimizi və rəqiblərimizi də daha yaxşı qiymət siyasətinə sövq etdiyimizi ortaya qoyur.

2017-ci ilin ikinci rübündə keçirilmiş mobil şəbəkənin sınaq testlərinin nəticələrinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinə görə ölkədə ən yüksək nəticəni göstərmişdir. Mobil rabitə şəbəkəsi testləri layihələndirmə və test xidmətləri üzrə ixtisaslaşmış müstəqil beynəlxalq şirkət olan "P3 Communications" tərəfindən keçirilmişdir.

Bütün bunlara xülasə olaraq deyə bilərəm ki, bizim mövqeyimiz ən azından eyni xidmət səviyyəsini və eyni texnologiyaları təmin etmək, lakin bu təklifləri daha əlverişli qiymət siyasəti ilə həyata keçirməkdən ibarətdir.

**–Hazırda neçə baza stansiyası istismardadır və ilin sonunadək daha neçəsini istismara verməyi planlaşdırırsınız?**

–Ötən il 4G baza stansiyalarının sayında 67%, 3G stansiyalarında isə 14% artım oldu və biz bu tendensiyası davam etdiririk. Təkcə 2018-ci ilin ilk rübündə biz 147 yeni 4G baza stansiyası quraşdırmışıq və göründüyü kimi, 4G şəbəkəsinin genişləndirilməsi prosesini sürətləndiririk, bölgələrə gedirik. İstismara verilmiş 147 4G stansiyasından 63-ü bölgələrdə quraşdırılmışdır və hazırda Bakıdan başqa daha 20 şəhərində 4G xidməti təmin edilir. Biz Bakı metrosunda da 4G şəbəkəsi qurduq, "Formula" yarışları ərəfəsində isə paytaxtda daha 20 stansiya istismara verdik. 4G şəbəkəsi sürətlə inkişaf etdirilir, cari ildə və önümüzdəki illərdə şəbəkəyə ciddi investisiya qoymağa davam edəcəyik.

**–"Nar"ın bu il üçün olan əsas inkişaf planı nədən ibarətdir və uzunmüddətli layihələr hansılardır?**

–Bazardakı mövqeyimiz ən sərfəli və müştəri yönümlü mobil operator olmaqdır. Müştərilər üçün sərfəli təkliflərin inkişaf etdirilməsi bu il və gələn il bizim əsas təşəbbüsümüz olacaq. Digər tərəfdən, təklif etmək istədiyimiz böyük bir sahə var. Müştəri xidmətlərində prosesin sadələşdirilməsi və müştəri yönümlü proseslərlə əlaqədar olaraq müştəri təcrübəsinə daha çox diqqət yetirməyi düşünürük. Buna görə də bizim strateji mövqeyimiz və təşəbbüslərimizin reallaşdırılması sadəcə müştərilər arasında qiymətlərin münasib qəbul edilməsinə he-



sablanmayıb, bu, eyni zamanda, simkartların aktivləşdirilməsi, çağrı mərkəzlərinə müraciətlər və sair müştəri təcrübəsini də əhatə edir. Biz inanırıq ki, bu, fərqlənmə üçün bir imkandır. Bunlar bazardakı mövqeyimizlə bağlı məsələlərdir.

O ki qaldı paket məhsullarına, bu, ikinci məsələdir və biz buna yeni start vermişik. Biz "Full" təklifini ötən ilin sonunda təqdim etdik və onun aktiv kommunikasiyasına bir neçə ay öncə başladıq. Bu səbəbdən, bu, il ərzində və növbəti illərdə tanıtmağa çalışacağımız əsas məhsuldur. İnanırıq ki, bütün rabitə bazarı bu kimi paket məhsul layihələri üzərində işləməyə hazırlaşır. Biz isə bu seqmentdə lider olmağa və "Qutu" məhsulunu ölkənin aparıcı innovativ məhsulu kimi tanıtmağa çalışacağıq.

Ümumi texnoloji inkişafa gəlincə, növbəti iki-üç il ərzində mövcud trend 4G üzərində fokuslanacaqdır. Müvafiq zaman yetişən kimi biz 5G-ni təcrübədən keçirməyə hazır olacayıq. Xidmət sahəsinin innovasiyası nöqteyi-nəzərdən gözləntilərimiz, geniş mənada, mobil maliyyə xidmətləridir. Məhsullarımızı müştərilər üçün rahat və sadə etmək üçün innovasiyalara önəm veririk.

**–Gələcək iki il ərzində Azərbaycanın rabitə bazarının inkişafını necə görürsünüz?**

–Gələcək iki və ya üç il ərzində bazar daha rəqabətli olacaq, çünki bütün oyunçular həqiqətən də daha effektiv qiymət siyasəti yürütməyə çalışırlar, həm də mobil internetin inkişafına sərmayə qoyurlar. Smartfonların penetrasiyası və mobil internet məhsullarının inkişafı rəqabəti əhəmiyyətli dərəcədə artıracaq. Səsli danışıq xidmətlərində daha böyük rəqabət olacaq. Hamımız mobil internet xidmətlərini mümkün qədər tez inkişaf etdirməyə çalışırıq. Bu çağırış bazar üçün əsas sınaq olacaq.

**Hazırladı:**
**Ülvi QARAYEV,**
**"Respublika".**

# KİNODRAMATURGİYAMIZIN KLASSİKİ



**...İlk qələm təcrübələri ilə tanış olan Mehdi Hüseyn onu "etiraf olunmamış dahi" adlandırır. Mehdi Hüseynin xoş zarafatla verdiyi ədəbi dəyər tezliklə təəssüratında yanılmadığını göstərir. Gənc yazıçı ilk hekayələri, "Yanar ürək", "Teleqram", "Tütək səsi" kimi povestləri ilə Azərbaycan nəsrinin tarixində yeni bir ədəbi məktəbin təməlini qoyur.**

Bəlkə də, o zaman Mehdi Hüseyn sənətdə ilk addımlarını atan gənc yazıçının nə vaxtsa görkəmli kinodramaturq kimi də yetişəcəyini düşünmürdü. Yaxın gələcəkdə milli kino sənətimizdə poetik kinodramaturgiyanın banilərindən biri olacağını təsəvvürünə belə gətirmirdi.

O, ötən əsrin 70-ci illərində Azərbaycanın kino aləmində püxtələşmiş, sənətkar şöhrəti tapmış yazıçı kimi gəlir. Milli kinodramaturgiyamızda da heç kimə bənzəməyən sənətkar üslubu ilə tanınır. Yazdığı ssenarilər ilə milli kino sənətimizdə yeni-yeni zirvələr fəth edir. Ədəbi estetikasında poetik ekran sənət axtarışlarının ikinci qanadına çevrilir.

Estetik xüsusiyyətləri ilə seçilən ssenarilərində kinodramaturgiyanın incəliklərini nəzərdən qaçırmır. Ekran yaradıcılığının ədəbi palitrasında kompozisiya, müxtəlif rakurslar, işıq əsas ifadə vasitələri kimi mühüm rol oynayır.

Kinoestetikasının maraqlı cəhətlərindən biri də ssenarilərindəki maraqlı mizanlarla səciyyələnir. O, qəhrəmanlarının ədəbi həyatını sənətkar qəlbi ilə yaşayır. Ssenarilərindəki fiziki hərəkət hadisələrin inkişafından, dialoqların dinamikasında qaynaqlanır.

Kinematoqrafik düşüncələri hər dəfə fərqli rakursda bədii ekran təcəssümünü tapır. Poetik nəsri kimi, poetik kinodramaturgiyası da yüksək realizmi, həyatiliyi, bitkin kompozisiyası, dinamik süjet xətti ilə fərqlənir. Ssenarilərinin kompozisiyasında canlı, real təsvir əsas xüsusiyyətlərdən biridir. Sənətkar məramına uyğun olaraq epizodlarda hadisələrin vizual təsvirini həmişə ön plana çəkir.

Bəzən o, səhnələrdə dialoqlara yer vermir. Sözsüz yazdığı səhnələr sənətkar qələmi ilə sanki dil açıb danışır. Kinodramaturgiyasındakı belə məqamlar onun ekran poetikasına yeni bucaqdan işıq salır. Çoxşaxəli ekran-estetikasında milli kino sənətimizin ənənələri yeni inkişafını yaşayır. Üslub, forma axtarışlarında peşəkar kinodramaturq kimi cəsarətli addımlar atır.

Müasirlik ruhu, Vətən sevgisi, yüksək humanizm, canlı insan xarakterləri kino yaradıcılığının əsas mövzularındandır. Yaradıcılığına xas olan qüvvətli lirizm, obrazlılıq, bədiilik, hadisələrin kinematoqrafik üslubda təsviri, təbii ki, görkəmli rejissorların nəzərindən yayınmır. Əjdər İbrahimov, Rasim Ocaqov, Həsən Seyidbəyli, Eldar Quliyev kimi sənətkarlar onun kinodramaturgiyasına müraciət edirlər. Sənətsevərlər "26 Bakı komissarı", "Ulduzlar sönmür", "Nəsimi", "Tütək səsi", Nizami" kimi filmlərdən aldıqları ecazı, bədii təsiri heç zaman unutmurlar.

İsa Hüseynov 1928-ci il iyunun 12-də Ağstafa rayonunun Muğanlı kəndində müəllim ailəsində dünyaya gəlib. O, hələ orta məktəb illərində ədəbiyyata qəlbən bağlanır. Lakin Mustafa müəllim oğlunu həkim görmək arzusunda idi. Orta məktəbi bitirəndən sonra İsa atasının təkidi ilə N.Nərimanov adına Tibb İnstitutuna daxil olur. Həkimlik onun maraq dairəsindən kənarda olduğundan tezliklə təhsilini yarımçıq qoyur.

Gənc İsa 1946-cı ildə sənədlərini Bakı Dövlət Universitetinin filologiya fakültəsinə verir. Ədəbiyyat aləmində hamının diqqətini çəkən maraqlı oçerklər ilə gəlir. "Anadil oxuyan yerdə" adlı ilk oçerki "İnqilab və mədəniyyət jurnalında dərc olunur. Dördüncü kursda oxuyarkən M.Qorki adına Ədəbiyyat İnstitutuna köçürülür.

Təhsilini başa vurandan sonra Bakıya qayıdan İsa 1952-954-cü illərdə "Azərnəşr"də redaktor kimi fəaliyyətə başlayır. "Bizim qızlar", "Dan ulduzu" kimi povestləri ilə geniş oxucu kütləsinin sevgisini qazanır. 1960-cı ildə işıq üzü görən "Yanar ürək" povesti gənc yazıçının yeni ədəbi uğuru olur.

1960-1964-cü illərdə İsa Hüseynov "Literaturnıy Azerbaydjan" jurnalında nəsr şöbəsinin müdiri, 1964-1968-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor, 1968-1974-cü illərdə redaktor vəzifələrində çalışır. 1974-1979-cu illərdə ssenari şurasına üzv seçilir. 1979-cu ildən isə Azərbaycan Kinematoqrafiya Komitəsində baş redaktor kimi fəaliyyətini davam etdirir.

1979-cu ildə işıq üzü görən "Məhşər" romanı ilə yazıçı yeni bir ədəbi uğura imza atır. İsa Hüseynov 1976-cı ildə Əməkdar incəsənət xadimi, 1988-ci ildə isə "Xalq yazıçısı" fəxri adına layiq görülür.

İsa Muğanna ekran fəaliyyətində də əsl sənətkar ömrü yaşayır. Əsassız tənqidlərlə qarşılaşsa da, tutduğu şərəfli sənət yolundan dönmür, böyük yaradıcılıq amalına ömür boyu sadiq qalır. Onun kinorejissor Əjdər İbrahimovla birgə qələmə aldığı "Əbədiyyət" kinossenarisində görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun şərəfli həyatının unudulmaz səhifələrinə işıq salır. Akademik Püstəxanım Əzizbəyovanın təklifi ilə film istehsalata "Ulduzlar sönmür" adı ilə buraxılır. Çünki İsa Muğannanın filmin "Doktor Nərimanov" adlandırılması arzusu keçmiş SSRİ-nin Kinematoqrafiya Komitəsində təsdiqlənmir.

İsa Muğanna filmi iki seriya nəzərdə tutsa da, müəllifin bu arzusu da həyata keçmir. Həmçinin, ssenaridə geniş yer verilən milli motivlər Moskvada kəskin etirazlarla qarşılanır. Nəriman Nərimanov obrazını yaradacaq aktyor da mübahisələrə səbəb olur. İsa Hüseynov və Əjdər İbrahimov bu rolu Məlik Dadaşova həvalə etmək istəsələr də, bədii şura SSRİ xalq artisti Vladimir Samoylovun namizədliyi üzərində dayanır. Ssenaristin xüsusi məharətlə yaratdığı milyonçu Tağıyev obrazı da qərəzli tənqidlərə tuş gəlir.

Azərbaycan Mərkəzi Komitəsinin büro iclaslarında kəskin təzyiqlərə məruz qalan film yeni bir təhlükə ilə qarşılaşır. İclaslarda "Ulduzlar sönmür" sovet ideologiyasına zidd olan ekran əsəri kimi tənqid olunur. Filmin ekranlarda nümayişinə qadağa qoymaq kimi təkliflər verilir. Yalnız ümummilli lider Heydər Əliyevin köməkliyi, qayğısı sayəsində bu film böyük ekrana vəsiqə alır. İlk dəfə 20 mart 1971-ci ildə nümayiş olunan film nəhayətsiz tamaşaçı sevgisi qazanır.

İsa Muğannanın 1965-ci ildə nəşr olunmuş "Tütək səsi" povesti dövrün ədəbi hadisələrinə çevrilir. "Tütək səsi" povest janrında yazılsa da, əsərdə ekran estetikası özünü aydın göstərir. Povestin əsasında yazıçının qələmə aldığı eyni adlı ssenari bədii ekran məziyyətləri ilə rejissor Rasim Ocaqovun diqqətini çəkir.

Kinossenaridə İsa Muğanna müharibənin insanlara yaşatdığı ağrılar, faciəni cəbhə xəttindən çox uzaqlarda olan bir kəndin timsalında göstərir. Arxa cəbhədə insanların ağır, məşəqqətli həyatı güclü bədii ştrixlərlə təsvir olunur. Məktəbli ikən müharibənin törətdiyi fəlakətləri görən, qəlbən duyan İsa Muğanna ilk gənclik duyğularını sənətkar həssaslığı ilə qələmə alır.

Kinodramaturq "Tütək səsi"ndə müharibə mövzusuna fərqli istiqamətdən yanaşır. Düşmənin kəşfiyyatçı təyyarəsini, radioda səslənən cəbhə xronikasını nəzərə almasaq, kinossenaridə müharibə təsvirlərilə rastlaşmırıq. İsa Muğannanın ssenariyə daxil etdiyi məhəbbət mövzusu müharibənin insan talelərinə həssas yanaşmaq istəyinin bədii ifadəsidir. Surətlərin xarakteri, psixologiyası, davranışı dramatik süjet xəttinin inkişafında real təcəssümünü tapır.

Cəbrayıl-Sayalı xətti müharibə mövzusunda yazılan ənənəvi ssenarilərin qəhrəmanlarına oxşamır. Kinodramaturq məhəbbət xəttində cəsarətlə sovet kinosunda formalaşan ədəbi çərçivələrdən çıxır. Bu əsərdə o, canlı, unudulmaz surətlər qalereyası yaradır. Psixoloji eynilikdən uzaq olan bu surətlər səciyyəvi xüsusiyyətləri ilə unudulmur. İsfəndiyar kişi, Qılınc Qurban, Tapdıq, İsmət, Nuru kimi ekran obrazları peşəkar sənətkar qələmi ilə ekrana gəlir. İsfəndiyar kişinin-Məmmədrza Şeyxzamanovun sazda ifa etdiyi "Ruhani" havası ata qəlbinin acı fəryadı kimi səslənir.

1976-cı ildə keçmiş Frunze, indiki Bişkek şəhərində keçirilən IX Ümumittifaq kinofestivalında "Tütək səsi"nə görə İsa Muğanna münsiflər heyətinin yekdil rəyilə Qırğızıstan Yazıçılar İttifaqının Diplomuna və Prizinə layiq görülür.

İsa Muğannanın "Nəsimi"si kinodramaturgiyamızın ən uca zirvələrindən birini fəth etməsilə milli yaddaşımızda yaşayır. Yazıçı-kinodramaturq əsər üzərində işləyərkən dövrü, mühiti, şəxsiyyətlərin həyatını tarixi mənbələr əsasında dərindən öyrənir. İmadəddin Nəsimi, Fəzlullah Nəimi, Şirvanşah İbrahim, Teymurləng, Miranşah kimi surətlərin tarixi dürüstlüyü gərgin sənətkar zəhmətinin, bitib-tükənməyən nəhayətsiz axtarışlarının aydın ifadəsidir. Ssenari zəngin leksikası, poetik obrazlı, füsunkar bədii dilin axıcı, səlis olması ilə olduqca qüvvətlidir.

Nəsiminin poetik irsinə dərindən yiyələnən İsa Muğannanın ssenariyə şairin lirikasını, qəzəllərini daxil etməsi əsərin ümumi süjet xətti ilə səsləşir, ona yeni nəfəs gətirir.

1974-cü ildə Xalq artisti, kinorejissor Həsən Seyidbəylinin quruluşunda ekranlara çıxan "Nəsimi" filmi zamanın ən uğurlu sənət hadisələrindən biri kimi qarşılanır. Həmin ildə Bakıda keçirilən VII Ümumittifaq kinofestivalında "Nəsimi" tarixi mövzuda çəkilən ən yaxşı film kimi mükafat qazanır. Milli kinomuzun böyük uğuru olaraq dəyərləndirilir.

"Nizami" filmi də kinossenarist İsa Muğannanın poetik kinodramaturgiyasında xüsusi yer tutur. O, ssenarini filmin gələcək rejissoru Eldar Quliyevlə bərabər qələmə alır. Söhbətimizin bu məqamında Xalq artisti, kinorejissor Eldar Quliyevin unudulmaz yazıçı-kinodramaturq İsa Muğanna haqqında söylədiyi fikirləri yığcam formada oxuculara təqdim etməyi məqsədəmüvafiq hesab edirik.

***İsa Hüseynov 60-cı illər Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biridir. Həmin illərdə onun kitabları keçmiş SSRİ-də kütləvi tirajla nəşr olunurdu. O, kino ilə də yaxından maraqlanırdı. Kinostudiyaya redaktor kimi gəldi. İlk gündən böyük həvəslə fəaliyyətə başladı. Çox maraqlı ssenarilər yazdı. Otağının yanından keçəndə həmişə onu işləyən görərdin.***

***İsa Hüseynovla "Nizami" ssenarisi üzərində birgə işləmişəm. Onunla işləmək çox maraqlı idi. O, Nizaminin yaradıcılığını dərindən bilirdi. Şeirləri dilinin əzbəri idi. Poeziyasının dərinliklərinə mahir tədqiqatçı kimi baş vururdu. Ssenari üzərində işləyərkən həmişə yeni-yeni variantlar axtarırdı. Mən çox şadam ki, sənət həyatımda belə bir şəxsiyyətlə görüşdüm...***

İki görkəmli sənətkarın-İsa Muğanna ilə Eldar Qulyevin bədii üslub doğmalığı, mürəkkəb, çoxşaxəli mövzuya identik yaradıcı münasibəti kinossenarinin bitkinliyini təmin edən mühüm amillərdəndir. Görkəmli Azərbaycan şairinin, tarixi şəxsiyyətin obrazı, yaradıcılığının işıqlı ideyaları, mütərəqqi arzuları kinossenarinin əsas leytmotividir.

İlk dəfə 30 iyun 1982-ci ildə tamaşaçılara təqdim olunan "Nizami" filmi böyük uğur qazanır. Filmdə Müslüm Maqomayev - Nizami, Həmidə Ömərova-Afaq, Həsənağa Turabov-Müzəffər, Əladdin Abbasov-Xaqani Şirvani, Hacımurad Yegizarov-Qızıl Arslan kimi maraqlı obrazlar yaradırlar.

Keçmiş SSRİ-nin xalq artisti Müslüm Maqomayev Nizami obrazına aktyor sənətkarlığı ilə məharətlə yeni rənglər qatır. Nizaminin mütəfəkkir şair obrazının ekran təcəssümü Müslüm Maqomayevin çoxsaylı sənətkar uğurlarından biri kimi unudulmur. Onun ifaçılıq sənəti ilə aktyorluq qabiliyyəti bir-birini üzvi şəkildə tamamlayır.

Filmdə Nizami ilə Xaqaninin görüş səhnəsi İsa Muğanna və Eldar Quliyev tərəfindən xüsusi məharətlə qələmə alınıb. Bu mürəkkəb səhnə qüvvətli tarixi və həyati məzmunu ilə olduqca əlamətdardır.

1983-cü ildə keçmiş Leninqradda XVI Ümumittifaq kinofestivalında dahi Azərbaycan şairinin ekran təcəssümünə görə rejissor Eldar Quliyev Prizlə mükafatlandırılır. 1984-cü ildə isə Daşkənddə Asiya, Afrika və Latın Amerikası ölkələrinin Beynəlxalq kinofestivalında "Nizami" filmi Özbəkistan Yazıçılar İttifaqının və Özbəkistan Nazirlər Sovetinin Diplomlarına layiq görülür.

O, 1985-ci ildə "İdeal" romanı ilə oxucularının görüşünə Muğanna təxəllüsü ilə gəlir... Amansız ölüm yeni-yeni ekran arzularını gerçəkləşdirməyə aman vermir. İsa Muğanna 1 aprel 2014-cü ildə Bakıda vəfat edir.

Milli məfkurə ruhu İsa Muğannanın poetik kinodramaturgiyasının şah damarıdır. Onun ssenariləri əsasında çəkilən bütün filmlər bu gün də estetik təsir gücünü qoruyur. Bu, Xalq yazıçısı Mehdi Hüseynin böyük uzaqgörənliklə gənc yazıçıya verdiyi ədəbi dəyəri bir daha yada salır. İsa Muğannanın təkcə nəsrdə deyil, eyni zamanda, kinodramaturgiyada da dahi olması hələ neçə-neçə yüzilliklərin tarixi etiraflarında yeni təsdiqini tapacaq....

**Hatəm ƏSGƏROV,**
**rejissor.**

---

*Yaqub Mahmudov*

# Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix"

## *Şərqi və Qərbi Ermənistan haqqında uydurma*

**(əvvəli 8, 9 və 10 iyun tarixli saylarımızda)**

Lakin üzdəniraq erməni tarixçiləri öz təkmilləşdirilmiş yalanlarıyla bir az da qabağa gedərək yuxarıda adıçəkilən xanlıqları "Şərqi Ermənistan xanlıqları" adlandırırlar. Belə çıxır ki, öz Vətəninin azadlığı uğrunda döyüşən fədakar, dönməz, igid Gəncə xanlığının hökmdarı Cavad xan, İrəvan xanlığının rəşadətli hökmdarları Məhəmməd Hüseyn xan Qacar və Hüseynqulu xan Qacar, Hüseynqulu xanın qardaşı, İrəvan qalasının qəhrəman müdafiəçisi Həsən xan Qacar, Qarabağ xanlığının görkəmli hökmdarı İbrahimxəlil xan, bir sözlə, İrəvan, Naxçıvan, Qarabağ və Gəncə xanlıqlarının dövlət başçıları və siyasi xadimləri ermənisayağı "tarixə" əsasən, "erməni hökmdarları" olublar?! Daha gülməyib neyləyəsən!

Şübhəsiz, tarixi həqiqətə bu qəbildən olan bütün gizli niyyət və iddialar erməni saxtakarlığı təzahüründən başqa bir şey deyildir. Əgər xanlıqlardan birinin idarəçilik sistemi, yaxud dövlət atributuna aid bir fakt belə ermənilərlə bağlı olsaydı, bu, o dövrün sənədlərində öz əksini tapardı və "Azərbaycan xanlıqları" anlayışı yerinə "Şərqi Ermənistan" ifadəsindən istifadə olunardı. Lakin ilk mənbələr bunun əksini göstərir. Belə ki, məsələn, Rusiya dövlət hərbi-tarixi arxivinin Şamaxıdan Gəncəyə hücumu təsvir edən 1796-cı il 31 oktyabr tarixli sənədində Araz çayından şimaldakı Azərbaycan torpaqları barədə məlumatda "ölkə", "dövlət" mənasında "Aderbijanskiye vladeteli", "Aderbijanskiye voyska", "Aderbijanskiye xanı" sözləri işlədilir.

### ERMƏNİLƏRİN TARİXİNİN SAXTALAŞDIRILMASINDA QRİQORİAN KİLSƏSİNİN ROLU

Ona da diqqət yetirilməlidir ki, ermənilər dövlətçiliyini itirdikdən sonra məhz qriqorian kilsəsi ermənilərin tarixinin saxtalaşdırılmasında əsas rol oynamışdır. Qriqorian missionerləri hesaba alınmasa, ermənilərin Azərbaycan torpaqlarında görünməsi erməni katolikosluğunun Kilikiyadan Azərbaycanın Qaraqoyunlu dövlətinin ərazisinə keçməsindən sonra başlamışdır. Məhz Qaraqoyunlu dövləti dövründə sonralar tarixi Azərbaycan vilayəti Çuxursədin taleyində fəlakətli rol oynamış hadisə baş vermişdir. 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahanşah erməni katolikoslarının mərkəzini Kilikiya şəhəri Sisdən İrəvan yaxınlığındakı Üçkilsə (Üçmüəzzin) alban monastrına köçməsinə icazə vermişdir.

Erməni qriqorian kilsəsi Şərqin müsəlman dövlətlərinə qarşı yönəlmiş siyasət həyata keçirən Avropanın xristian dövlətlərinin himayəsindən və hər cür imtiyazlarından faydalanırdı. Nəticədə get-gedə daha çox zənginləşən qriqorian kilsəsi 1441-ci ildən başlayaraq uzun müddət ərzində müxtəlif yollar və vasitələrlə Azərbaycan torpaqlarını özününküləşdirdi.

Əminliklə söyləmək olar ki, 1441-ci ildə erməni katolikosluğunun mərkəzi Azərbaycanın Çuxursəd (İrəvan) regionuna köçürülənə qədər ermənilər həmin ərazidə heç bir kəndə və ya torpaq mülkiyyətinə malik deyildilər. Erməni kilsəsinin Azərbaycan türklərindən kəndləri, əkin sahələrini, zəmiləri, monastırları, digər torpaq mülkiyyəti və mülkiyyət obyektlərini almasına dair sənədlər bunu sübut edir. Hətta erməni katolikosluğunun yerləşdiyi Üçkilsə (Vağarşapat) kəndi 1443-cü ildən etibarən hissə-hissə müxtəlif vasitələrlə Azərbaycan türklərindən alınmışdır. Belə ki, 1443-cü ildə Azərbaycanın Qaraqoyunlu dövlətinin hökmdarı Cahanşahın razılığıyla Üçkilsəyə katolikos təyin edilmiş Qriqor Makinski Üçkilsə kəndinin bir hissəsini onun sahibi, Azərbaycanda məşhur nəslin övladı, azyaşlı Səid bəydən 8 min 40 dinara, üç il sonra isə kəndin qalan hissəsini və daha 6 kəndi Rüstəm adlı bir müsəlmandan 90 min dinara alıb sahiblənmişdir.

Xarici himayədarlar və xristian missionerlərin hesabına varlanan erməni kilsəsi Azərbaycan hökmdarlarından yeni-yeni torpaqlar alır, bu yolla ermənilər üçün tarixi Azərbaycan torpaqlarında daimi yaşayış yerləri yaradırdı. Azərbaycan dövlətləri Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilərin dəstəyindən istifadə edən Üçkilsə katolikosları və onların avropalı himayədarları erməniçiliyin möhkəmlənməsinə və Azərbaycanın qərb torpaqlarında saylarının artmasına çalışırdılar. Bu mənada mənbə məlumatına görə erməni kilsə xadiminin əldə etdiyi torpaqlar haqda 1687-ci ildə yazdıqları fövqəladə dərəcədə maraqlıdır: "**...aldım, yaxud ələ keçirdim, yaxud rüşvət verib azad etdim, ya sədəqə qismində götürdüm, ya da güclə qazandım**". "Cambr" əsərinin rus tərcüməsinin ön söz müəllifi—P.S.Arutyunyan bu məlumatı şərh edərkən etiraf etməli olmuşdur ki, **XV-XVIII əsrlərdə erməni kilsə və dünyəvi feodallarının torpaq mülkiyyətləri məhz bu yollarla yaradılmışdır.**

Qara Yusifin ölümündən sonra (1410-1420) erməni kilsəsi Azərbaycan dövləti Qaraqoyunludakı mürəkkəb vəziyyətdən istifadə edərək, müxtəlif yollarla Azərbaycanın Çuxursəd, Naxçıvan və Qarabağ vilayətlərində kəndlərin bir hissəsini ələ keçirdi. Bütün bu torpaq alqı-satqısı əməliyyatlarını erməni müəllifi A.D.Papazyanın Matanadaranda qorunan farsdilli mənbələr əsasında tərtib etdiyi sənədlər toplusunda nəzərdən keçirmək olar. Baxmayaraq ki, A.D.Papazyanın təqdim etdiyi sənədlərin ermənidilli variantında belə Çuxursəd, Naxçıvan və Qarabağ vilayətləri "Azərbaycan ölkəsinə" aid edilir, müəllif bu sənədləri rus dilində şərh edərkən bu ölkəni "Ararat ölkəsi" adlandırır və bununla tarixi açıq-aşkar saxtalaşdırır.

### TARİXİ HƏQİQƏT VƏ MİSLİ GÖRÜNMƏMİŞ ERMƏNİ SAXTAKARLIĞI

Ermənilər Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda gəlmə etnosdurlar. Onların Cənubi Qafqaza köçü bir neçə mərhələdə baş verib. Rusiya imperatoru I Pyotr bu prosesdə xüsusi rol oynayıb. I Pyotrun 1724-cü il 10 noyabr tarixli fərmanına əsasən Rusiya imperiyasının ermənilər üzərində himayəsi və onların Xəzəryanı ərazilərdə (Gilan, Mazandaran, Bakı və başqa torpaqlarda) yerləşdirilməsi nəzərdə tutulurdu.

I Pyotrun general Matyuşkinə göndərilən və bilavasitə ermənilərə "hər cür kömək göstərilməsinə" həsr olunan 1724-cü il 10 noyabr tarixli fərmanında onlara rus qoşunlarının tutduğu Xəzərətrafı torpaqlarda, o cümlədən Gilanda, Mazandaranda, Bakıda, Dərbənddə məskunlaşa bilmələri üçün ən rahat, əlverişli və məqsədəuyğun yerlərin ayrılması tapşırılırdı.

Rusiya imperiyası XIX əsrin I yarısında Cənubi Qafqazın işğalını sona çatdıraraq, regionun tarixində ilk dəfə, özü də keçmiş Azərbaycan xanlıqlarının torpaqlarında, ermənilər üçün ərazi vahidi—"Erməni vilayəti" yaratdı. Bu ərazi qurumunda aparıcı mövqeləri "vilayətdə" say etibarilə mütləq çoxluq təşkil edən azərbaycanlılar deyil, yenidən Osmanlı imperiyasından və İrandan köçürülmüş erməni azlığı tuturdu.

"Şərqi Ermənistan"ın erməni uydurması olduğunun təsdiqi üçün daha bir neçə misal. 1703-cü il 22 noyabrda İsrail Orinin I Pyotra təqdim etdiyi sənədə imperatora belə bir fikir təlqin edilir ki, **əgər rus ordusu İrəvan qalasını işğal edərsə, "onda bütün Armeniyanı və gürcüləri özünüzə ram edərsiniz"**. Q.Ezovun kitabında bu sənədin rusdili variantı ilə yanaşı, latındilli variantı da təqdim edilir. Baxmayaraq ki, sənədin latındilli variantında "ermənilər" və "gürcülər" qeyd olunur, erməni müəllifləri Q.Ezov və A.İoannisyan, sənədi təhrif edərək, "ermənilər" əvəzinə "Armeniya" işlədirlər. Bununla da "erməni dövləti" anlayışını uyduran erməni müəllifləri arxiv materiallarının açıq-aşkar saxtalaşdırırlar.

1805-ci ildə Rusiya imperiyasıyla Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığı arasında **"Qarabağ xanı və Rusiya imperiyası arasında xanlığın Rusiya hakimiyyəti altına keçməsi haqqında 1805-ci il 14 may tarixli müqavilə"** adlanan Kürəkçay sazişi imzalanmışdır. Bu sazişə əsasən, Qarabağ xanlığı Rusiyanın himayəsini qəbul edir, Rusiya isə xanlığa daxil olan torpaqların onun hökmdarı İbrahimxəlil xana, gələcəkdə onun varislərinə aidliyini qəbul edir. Lakin erməni tarixçiləri əsl tarixi və Kürəkçay müqaviləsinin məzmununu təhrif edərək bildirirlər ki, guya Qarabağ xanlığı ermənilərə məxsus imiş və Kürəkçay sazişi Rusiya ilə ermənilər arasında imzalanıb. Baxmayaraq ki, ermənilərin İran və Türkiyədən Azərbaycana, o cümlədən Qarabağ xanlığına köçürülməsi 1805-ci ildə bağlanmış Kürəkçay müqaviləsindən çox-çox sonra, 1828-ci ildə başlayıb.

1978-ci ildə Qarabağda yaşayan ermənilər Qarabağ torpağına gəlmələrinin 150 illiyini bayram etdilər və hətta bu münasibətlə o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Ağdərə rayonunun Marquşevan kəndində abidə ucaltdılar. 1988-ci ildə erməni ekstremistləri tarixin izlərini silmək üçün, ermənilərin Qarabağ torpağında gəlmə etnos olmalarına şahidlik edən bu abidəni məhv etdilər. Hazırda bu abidənin qalıqları Azərbaycan Respublikasının Ağdərə rayonundadır.

XVIII əsrin sonları XIX əsrin əvvəllərində Rusiya imperiyası Cənubi Qafqazı işğal edən dövrdə burada heç bir erməni dövləti olmayıb. Regionda Azərbaycan xanlıqları hakim mövqedə idi. Cənubi Qafqazda onlardan başqa gürcü çarlığı da mövcud idi. O zamanlar indiki Ermənistan Respublikasının ərazisində iki Azərbaycan dövləti yerləşirdi: İrəvan və Naxçıvan xanlıqları. 1826-1828-ci illər rus-İran müharibələrinin yekunlarına görə bu hər iki Azərbaycan xanlığı - İrəvan və Naxçıvan xanlıqları - 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsinin şərtlərinə görə Rusiya imperiyasının tərkibinə keçdi. Bu tarixi fakt Türkmənçay müqaviləsinin mətnində və məzmununda öz əksini tapıb. Konkret olaraq müqavilənin üçüncü maddəsində məhz İrəvan və Naxçıvan xanlıqlarının Rusiya imperiyasına birləşdirilməsindən danışılır. Müqavilənin nə bu, nə də digər maddələrində "Ermənistan" sözü işlənmir. İşlənə bilməzdi də, belə ki, o dövrdə Cənubi Qafqazda "Ermənistan" adlı ərazi, yaxud dövlət mövcud deyildi.

İrəvan xanlığı Azərbaycan dövlətçiliyi tarixində əhəmiyyətli rol oynamış məşhur Qacarlar türk sülaləsi xanları tərəfindən idarə olunurdu. Xanlığın dövlət idarəçiliyi sistemi, ictimai, siyasi, mədəni və təsərrüfat həyatı, yerli əhalinin məişəti Azərbaycanın minillər boyu davam edən tarixi inkişaf ənənələri ilə ayrılmaz surətdə bağlı idi. İrəvan xanlığı öz inkişaf xüsusiyyətlərinə görə o dövrdə mövcud olan digər Azərbaycan dövlətlərindən azca belə seçilmirdi. Azərbaycan xalqı İrəvan xanlığı ərazisində minilliklər boyu çoxsaylı yaşayış məntəqələri, kəndlər və şəhərlər tikmiş, minlərlə mədəniyyət abidəsi, qalalar, məscidlər, minarələr, hamam və karvansaralar yaratmışdı. Bütün toponimlər, regiondakı yer adları Azərbaycan xalqı tərəfindən verilmişdi.

Buna baxmayaraq, erməni tarixçisi V.Tunyan kitabını "Şərqi Ermənistan Rusiyanın tərkibində (1828-1853) adlandırmışdır. Müəllif rus çarı I Nikolayın Ermənistan vilayəti yaradılması haqqında 1828-ci il 21 mart fərmanını təhrif edərək, bunu **qədim Armeniya əraziləri - İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya birləşdirilməsi** kimi xarakterizə edir. Amma fərmanın özündə deyilir ki, **Rusiyaya birləşdirilmiş İrəvan və Naxçıvan xanlıqları bundan sonra Ermənistan vilayəti adlandırılmalıdır.**

**(davamı növbəti saylarımızda)**

# XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisində AZƏRTAC öz stendi ilə təmsil olunur



**İyunun 11-də Bakı Ekspo Mərkəzində öz işinə başlayan XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisində AZƏRTAC da öz stendi ilə təmsil olunur.**

Stenddə dövlət informasiya agentliyinin fəaliyyəti, keçdiyi mürəkkəb və şərəfli yol, dünyanın aparıcı xəbər agentlikləri ilə əməkdaşlığı barədə dərc olunan kitablar yer alıb.

Bundan başqa, sərgiyə gələn ziyarətçilər müəllifi AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov olan "Qloballaşan dünyada informasiya hamı üçün", "AZƏRTAC-dan AZƏRTAC-a", rus dilində dərc olunan "İnformasiyanın yaradılması: Standartlar və yeni yanaşmalar" və digər nəşrlərlə də yaxından tanış ola bilirlər.

Stenddəki fotoşəkillər də ziyarətçilərin böyük marağına səbəb olur. Həmin ekspozisiya ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin Azərbaycan Dəmir Yolu, Bakı Metropoliteni, hava və avtomobil nəqliyyatı və gəmiçiliklə bağlı iştirak etdiyi mərasim və tədbirlərdə çəkilmiş fotomateriallardır.

**AZƏRTAC**



# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNDƏ MEDİATUR TƏŞKİL OLUNUB

**Gəncə Dövlət Universitetində (GDU) 2017-2018-ci tədris ilinin yaz sessiyasının gedişini müşahidə etmək məqsədi ilə KİV nümayəndələrinin iştirakı ilə mediatur təşkil olunub. Mediaturda tələbələrin valideynləri və ictimaiyyət nümayəndələri də iştirak edirdilər. İştirakçılar imtahan otaqlarında olub, ayrı-ayrı fənlər üzrə 500 nəfər tələbənin eyni vaxtda biliyinin yoxlandığı yazılı imtahan prosesini izləyiblər.**



Rektorun müşaviri Asif Cavadov, tədris işləri üzrə prorektor Fəxrəddin Məmmədov, humanitar işlər üzrə prorektor Gülsüm Fətəliyeva və fakültə dekanları KİV təmsilçilərinə imtahan prosesi barədə ətraflı məlumat veriblər. Bildirilib ki, ümumilikdə 6 min tələbənin biliyinin yoxlanacağı imtahan sessiyası həm əyani, həm də qiyabi şöbə üzrə yazılı, şifahi formada, test üsulu və qabiliyyət üzrə olmaqla iyulun 5-dək davam edəcək. İmtahan sessiyasının mövcud normativ sənədlərə uyğun təşkili məqsədilə universitet rəhbərliyi tərəfindən xüsusi komissiya yaradılıb. Sessiyanın beynəlxalq təcrübəyə əsaslanması və otaqların imtahan başlanana qədər materialla təchiz edilməsi, sessiya dövründə fənn müəllimlərinin və imtahan nəzarətçilərinin müvafiq izahat işləri aparması, eyni zamanda, sessiyanın keçirilməsinə kömək etmək məqsədi ilə tələbə təşkilatlarının da imtahanda iştirakı təmin edilib. Gəncə Dövlət Universitetində 2017-2018-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədi ilə imtahan sessiyası dövründə yarana biləcək neqativ halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun keçirilməsinə kömək üçün Operativ Qərargah fəaliyyətə başlayıb. Eyni zamanda, universitetin *gdu.edu.az* saytında yerləşdirilmiş telefon nömrələri, rəsmi "facebook" ünvanı olan "Gəncə Dövlət Universiteti", *mail@gdu.edu.az* ünvanlı elektron poçtu və "Qaynar xətt" elan edilib. Həmçinin, bu il ilk dəfə olaraq həm semestr ərzində, həm də sessiya dövründə tələbələrin yarana biləcək problemlərinin aradan qaldırılması məqsədilə Tələbə Ombudsman Mərkəzi fəaliyyətə başlayıb.



Mediatur iştirakçılarına bu il universitetdə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın zənginləşdirilməsi istiqamətində aparılan işlər, eləcə də ali təhsil müəssisəsində yaradılan idarəetmə, tədris və imtahan prosesi, Azərbaycanın və Avropanın qabaqcıl elm-təhsil ocaqları ilə yaradılan ikitərəfli qarşılıqlı əməkdaşlıq istiqamətləri, həyata keçirilən səmərəli beynəlxalq layihələr və onların müsbət nəticələri haqqında məlumat verilib.

Çıxış edənlər media mənsubları ilə ali təhsil müəssisəsi arasındakı əməkdaşlığın mahiyyətindən söz açaraq bu əlaqələrin davamlı olmasının əhəmiyyətini vurğulayıblar. Öz növbəsində KİV təmsilçiləri prosesin təşkili və gedişatından razılıqlarını ifadə ediblər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Azərbaycan Respublikası Ağdaş Rayon İcra Hakimiyyəti başçısının Ağdaş Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2018-ci ildə şəhərdə görüləcək abadlıq-təmir işlərinin satınalınması üçün

Açıq Tender elan edir

Tender 1 (bir) Lot üzrə aparılır:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdır. Abadlıq-təmir işləri ilin sonunadək nəzərdə tutulur.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ağdaş Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyindən ala bilərlər.

Əlaqələndirici şəxs: Cavadova Əzimə.

Telefon: 5-17-35.

(Ünvan: Ağdaş şəhəri, Heydər Əliyev xiyabanı 1)

İştirak haqqı — 160 (yüz altmış) manat

Təşkilat: Ağdaş Rayon İcra Hakimiyyəti başçısının Ağdaş şəhər İnzibati Ərazi üzrə Nümayəndəliyi

Hesab:
Ağdaş YXO
AZ27AIIB32051019446000201160
VÖEN: 3300029641
Bank: "Kapital Bank"ın Ağdaş filialı
Kodu: 200606
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
S.W.I.F.T. BIK: AIIBAZ 2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

—tenderdə iştirak etmək üçün ərizə;

—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

—tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);

—tender təklif qiymətinin 1 faizi həcmində təklifin təminatı (zərflərin açıldığı gündən 60 bank günü qüvvədə olmalıdır);

—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

—iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

—müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 20 iyul 2018-ci il tarixdə saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 30 iyul 2018-ci il tarixdə saat 17:00-a qədər Ağdaş şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyinə (ünvan: Ağdaş şəhəri, Heydər Əliyev xiyabanı 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 31 iyul 2018-ci il tarixində saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

TƏKRAR

## Azərbaycan Milli Elmlər Akademiyası Respublika Seysmoloji Xidmət Mərkəzi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 Lot üzrə aparılır:**

**Lot-1. Avadanlıqların alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**İştirak haqqı:**

**Lot-1—100 (yüz) manat**

*DXA*
*Kod: 210005*
*VÖEN: 1401555071*
*M/h: AZ85NABZ01365010000000003003944*
*S.W.I.F.T. CTREAZ22*
*H/h: AZ34CTRE00000000000004138305*
*Adı: AMEA RSXM*
*H/h: AZ34CTRE00000000000004138305*
*VÖEN: 1700434611*
*Büdcə səviyyəsinin kodu: 1*
*Büdcə təsnifat kodu: 4138305*
*Maddə: 142319*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı gündən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*—iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. Xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti, iş qrafiki istisna olmaqla) 11 iyul 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 19 iyul 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 20 iyul 2018-ci il saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Ünvan:** *Bakı şəhəri, Səbail rayonu, R.Rəfibəyli küç. 9.*

**Telefon/Faks:** *012-492-50-70.*

**Tender Komissiyası.**

TƏKRAR

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1 - Samux-Gəncə-Daşkəsən(ÇFES) marşrutu və əks istiqamətdə işçilərin daşınması xidmətinin satınalınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel.: 012-505-02-02, I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 220 manat.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab:*
*AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*

*7. Digər müvafiq sənədlər (malgöndərənlərin (podratçıların) ixtisasına dair müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 06 iyul 2018-ci il, saat 15.00-a qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) 17 iyul 2018-ci il, saat 15.00-a qədər "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı 18 iyul 2018-ci il saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC,**
**TENDER KOMİSSİYASI.**

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## MERKEL RUSİYANIN "G7"yə QAYITMASI İLƏ BAĞLI ŞƏRTİ AÇIQLAYIB



Dünyada böhranların nizamlanması üçün Qərbin Rusiyaya ehtiyacı var, lakin Rusiyanın "G8" formatına qayıtması Minsk razılaşmalarının yerinə yetirilməsindən asılıdır. "APA"nın məlumatına görə, bunu "ARD" telekanalına müsahibəsində Almaniya kansleri Angela Merkel bəyan edib.

"Mən Rusiyanın qayıdışını təsəvvür edə bilərəm. Lakin əvvəlcə Minsk razılaşmasının yerinə yetirilməsində irəliləyiş baş verməlidir", - deyə A.Merkel qeyd edib.

Almaniya kansleri həmçinin İtaliyanın Rusiyaya qarşı tətbiq edilən sanksiya rejiminə sadiq qalacağına ümid etdiyini vurğulayıb. O deyib: "Düşünürəm ki, İtaliya bizimlə razıdır və "G7" sammitində səslənən fikirlərə uyğun hərəkət etmək niyyətindədir".

Xatırladaq ki, bugünlərdə ABŞ prezidenti Donald Tramp bəyan edib ki, Rusiya "Böyük yeddiliyə" qayıtmalıdır. O bildirib ki, kiminsə xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq Rusiya "G7"də iştirak etməlidir. İtaliyanın baş naziri Cuzeppe Rossi isə Rusiyaya qarşı tətbiq edilən sanksiyaların yenidən nəzərdən keçirilməsinə çalışacağını bildirib.

## İSPANİYANIN DAHA BİR REGİONU MÜSTƏQİLLİKLƏ BAĞLI AKSİYA KEÇİRİB




İspaniyanın daha bir regionunda bazar günü müstəqilliklə bağlı aksiya keçirilib. "APA"nın "Röyters" agentliyinə istinadən verdiyi məlumata görə, Bask regionunda aksiya iştirakçıları 202 kilometr uzunluqda "canlı zəncir" formalaşdırıblar.

Verilən xəbərə görə, aksiya iştirakçıları Bask regionunun müstəqilliyi ilə bağlı referendum keçirilməsini tələb ediblər.

Aksiyanı Baskdakı "Bizim əllərimizdə" təşkilatı təşkil edib. On minlərlə insan San-Sebastyan şəhərindən Bask regionunun inzibati mərkəzi sayılan Vitoridəki parlament binasına qədər "canlı zəncir" formalaşdırıblar.

Məlumat üçün qeyd edək ki, 1978-ci ildə qəbul edilən İspaniya Konstitusiyasına əsasən ölkə bölünməzdir.

Xatırladaq ki, ötən ilin oktyabrında İspaniyanın Kataloniya regionunda bu ölkənin tərkibindən birtərəfli çıxmaq və müstəqillik elan etməklə bağlı qanunsuz referendum keçirilib. Lakin regionun müstəqilliyinə faktiki nail olmaq mümkün olmayıb.

## İRAQDA SAYILMASI NƏZƏRDƏ TUTULAN BÜLLETENLƏR YANIB



Bağdadda mayın 12-də ölkədə keçirilən parlament seçkiləri ilə əlaqədar seçki bülletenlərinin əksəriyyətinin saxlanıldığı anbarda yanğın baş verib. "APA"nın məlumatına görə, bu barədə "Al-Sumaria" telekanalı İraqın Daxili İşlər Nazirliyinə istinadən məlumat yayıb.

Verilən xəbərə görə, yanğın İraq Mülki Müdafiə Qüvvələri tərəfindən lokallaşdırılıb. Anbar İraq Ticarət Nazirliyinə məxsus olub və bülletenlərin saxlanılması üçün İraq Ali Seçki Komissiyasına icarəyə verilib.

Bununla yanaşı, İraqdakı bir sıra partiyalar parlament seçkilərində seçki komissiyalarını bülletenlərin sayılmasında saxtakarlığa yol verməkdə ittiham edib.

Eyni zamanda, bildirilir ki, bülletenlərin əksəriyyətinin saxlandığı anbarda da yanğın İraq parlamentinin səslərin yenidən sayılması ilə bağlı qərar verməsi fonunda baş verib. Səslərin sayılması BMT və İraq Ali Məhkəmə Şurasının təmsilçilərinin nəzarəti altında 10 min könüllünün iştirakı ilə keçirilməlidir.

Qeyd edək ki, mayın 12-də İraqda keçirilən parlament seçkilərində seçicilərin 44,5 faizi iştirak edib. Seçkidə şiə lider Müqtəda əs-Sədrin başçılıq etdiyi blok qalib gəlib və parlamentdə 54 yer qazanıb. İkinci yerdə İraqın baş naziri Heydər əl-Abadinin başçılıq etdiyi "Nasr" bloku qərarlaşıb. Belə ki, "Nasr" bloku parlamentdə 42 yerə sahib olub.

## ABŞ-da MÜHACİRLƏR HƏBSXANALARA YERLƏŞDİRİLƏCƏK



ABŞ-da mühacirlər həbsxanalarda yerləşdirilməyə başlayıb. "APA"nın Türkiyə mətbuatına istinadən xəbərinə görə, bu barədə ABŞ-ın Miqrasiya və Gömrük İdarəsi məlumat yayıb.

Verilən xəbərə görə, mühacirlərin həbsxanalara yerləşdirilməsinə səbəb sığınacaqlarda yerlərin olmamasıdır.

ABŞ-a mühacirət edən yeni 1600 nəfər Donald Trampın "sıfır qarşılama" qərarı əsasında federal həbsxanalara köçürülür. Onlardan 1000 nəfər Kaliforniya ştatındakı cəzaçəkmə müəssisələrində qalacaq.

Mühacirlərin həbsxanalara aparılma prosesinin necə təşkil olunacağı bilinmir, rəsmilər onların həbsxanada təhlükəsizliklərinin də sual altında olduğunu qeyd edirlər. Mühacirlər həbsxanalarda ən azı 4 ay qalacaqlar.

Məlumat üçün qeyd edək ki, ABŞ-da federal həbsxanalarda ən ağır cinayətlərdə məhkum olunmuş məhbuslar saxlanılır.

## İRAN XİN-i: SURİYADA İŞTİRAKIMIZI DAVAM ETDİRƏCƏYİK



"Bizim qənaətimizcə, Avropa İttifaqı ABŞ-ın sazişdən çıxmasına görə yaranmış durumdan çox narahatdır". "APA"nın məlumatına görə, bu sözləri İranın Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasimi keçirdiyi həftəlik mətbuat konfransında dilə gətirib.

Bəhram Qasimi bildirib ki, əgər Avropa İranın Hərtərəfli Birgə Fəaliyyət Planında qalmasını istəyirsə, ən qısa zamanda planın tələblərinə uyğun öhdəliklərini yerinə yetirmək üçün lazımi mexanizmləri təqdim etməlidir. O deyib: "Əlbəttə, Rusiya və Çin də öz öhdəliklərini yerinə yetirməlidir. Elə bir nəticə əldə olunmalıdır ki, bu gün ABŞ-ın iştirakı olmadan da plan çərçivəsində əməkdaşlıq davam etdirilsin. Biz nikbinik, lakin qarşı tərəf İranın razılığını əldə etməlidir".

Bununla yanaşı, B.Qasimi İranın Suriyada iştirakı ilə bağlı suala cavabında qeyd edib ki, bu məsələdə İran və Suriyanın mövqeyi tam aydındır. "Bizim danışıqlarımız Astana prosesi çərçivəsində aparılır. Bugünlərdə iki ölkənin prezidentlərinin görüşü olub. Bizim Suriyadakı iştirakımız Suriya dövlətinin istəyi ilədir və məqsədimiz terrorizmlə mübarizədir. Rusiya rəsmilərinin adından yayılan məlumatlar öz təsdiqini tapmayıb və bizim əməkdaşlığımız Suriyada sabitlik bərqərar olanadək davam edəcək".

## SƏUDİYYƏ ƏRƏBİSTANI ƏCNƏBİLƏRƏ VİZA REJİMİNİ SADƏLƏŞDİRİR



Səudiyyə Ərəbistanı Qırmızı dənizdəki 50 ada üzərində yaradılacaq kurotlara əcnəbilərin girişini sadələşdirmək qərarına gəlib. "APA"nın Türkiyə mətbuatına istinadən məlumatına görə, 4 milyard dollar dəyərindəki layihənin tamamlanması ilə bölgədə 35 min yeni iş yeri yaranacaq.

Verilən xəbərə görə, 2022-ci ildə istifadəyə veriləcək yeni istirahət zonasının həcmi Belçikanın ümumi ərazisindən daha çox olmaqla, özündə mehmanxana, yaşayış binaları, yeni şəhər, hava limanı və yaxtalar üçün parkinqləri birləşdirəcək.

Eyni zamanda, bildirilir ki, hazırda əcnəbilərə ölkəyə gəlmək üçün viza verilmir. Yeganə istisna iş adamları, ailə üzvünü görmək istəyən əcnəbilər, eləcə də Məkkəyə ziyarətə gələn zəvvarlardır.

Bununla yanaşı, verilən xəbərə əsasən, 30 yaşadək qadınlar əri və ya qardaşı ilə səyahət edə bilər.

Qeyd edək ki, il ərzində Səudiyyə Ərəbistanına 200 min nəfər səyahət edir. 2020-ci ildə isə bu rəqəmin 1,5 milyon nəfərə çatdırılması gözlənilir.

## DÜNYANIN ƏN BÖYÜK AYSBERQİ ƏRİMƏ "SƏYAHƏTİNƏ" ÇIXIB



ABŞ-ın Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) 2000-ci ildə Antarktidadan qopan dünyanın ən böyük aysberqinin isti dənizlərə doğru yola çıxdığını bildirib. "TRT" telekanalının məlumatına görə, bu barədə "Daily Mail" qəzeti xəbər verib.

Məlumata görə, Beynəlxalq Kosmos Stansiyasından əldə edilən görüntülərdə Arktikadakı Ross Buz dəhlizindən qopan 11 min kvadrat kilometrlik kütlənin buz qitəsi ətrafında dolaşdıqdan sonra Atlantik okeanının cənubundakı adalar istiqamətində irəlilədiyi aşkar edilib.

Verilən xəbərə əsasən, ekvator xətti istiqamətində, isti dənizlərə doğru hərəkət edən kütlənin yeni marşrutunda əriyərək yox olacağı ehtimal edilir.

Məlumat üçün qeyd edək ki, sözügedən nəhəng buz kütləsi 18 il ərzində Antarktida ətrafında dolaşarkən təxminən 10 min kilometr yol qət edib. ■

## Respublika Baytarlıq Laboratoriyası

## KOTİROVKA SORĞUSU ELAN EDİR

1. Dəftərxana ləvazimatlarının alınması;
2. Ehtiyat hissələrinin alınması;
3. Yumşaq inventarların alınması;
4. Təsərrüfat mallarının alınması;
5. Plakat və posterlərin alınması.

**Ünvan:** *Bakı şəhəri, 8-ci mikrorayon, 3123-cü məhəllə.*

**Əlaqə telefonu:**

*(012) 562-83-13.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 26 aprel və 06 may 2018-ci il tarixli nömrələrində Respublika Baytarlıq Laboratoriyasının Avadanlıqların (helium, arqon və azot qazı) satınalınması məqsədilə elan dərc edilmişdir. Tenderdə iştirakçıların sayı üçdən az olduğu üçün istirahət və bayram günlərini nəzərə alaraq ilkin sənədlərinin qəbulu 29 iyun 2018-ci il, təkliflərin son təqdimatı 05 iyul 2018-ci il, zərflərin açılması isə 06 iyul 2018-ci il tarixə kimi uzadılır.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 21 aprel 2018-ci il və 01 may 2018-ci il tarixlərində "Respublika" qəzetində elanı verilmiş tenderin açılış vaxtı 03 iyul 2018-ci il saat 12:00-a qədər uzadılsın.

TƏKRAR

## "Azərpoçt" MMC üzrə Tabeli poçt müəssisələrinin təminatı üçün

## AÇIQ TENDER ELAN EDİR

**Tender 6 (altı) lot üzrə keçirilir:**

**Lot 1.** Polietilen məhsulların alınması.

**Lot 2.** Parça məhsulların alınması.

**Lot 3.** Ciddi hesabat və nömrəli qəbzlərin alınması.

**Lot 4.** İstismar blanklar və istismar jurnalların alınması.

**Lot 5.** Bank avadanlıqlarının alınması.

**Lot 6.** Bağlama qutuların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 72 ünvanında yerləşən "Azərpoçt" MMC-dən (əlaqələndirici şəxs: İsmayılov Oktay, Şixbabayev İlham, telefon: 493-56-00 (240, 241) ala bilərlər.

**I Lot üzrə - 200 manat**
**II Lot üzrə - 300 manat**
**III Lot üzrə - 300 manat**
**IV Lot üzrə - 400 manat**
**V Lot üzrə - 400 manat**
**VI Lot üzrə - 300 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*"Azərpoçt" MMC*
*Kod: 690001*
*M\H: AZ76NABZ01350100000000094944*
*VÖEN: 9900037711*
*S.W.İ.F.T: AZPOAZ 22*
*"Azərpoçt" MMC*
*VÖEN: 9900037711*
*Hesablaşma hesabı: AZ82AZPO99995381000420000125*

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün ərizə;*
*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*- Tender təklifi qiymətinin 2%-i həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- Son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*- İddiaçının tam adı, hüquqı statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- Müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **11 iyul 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və zəmanətinə isə möhürlənmiş ikiqat zərfdə **20 iyul 2018-ci il saat 18:00-a** qədər Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **23 iyul 2018-ci il saat 11:00-da** Üzeyir Hacıbəyov küçəsi 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## "Azərpoçt" MMC üzrə Tabeli poçt müəssisələrinin təminatı üçün

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**

**Lot 1.** Təsərrüfat mallarının alınması.

**Lot 2.** Dəftərxana məhsullarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

